

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Azərbaycanda iqtisadi inkişaf və sabitlik: demoqrafik inkişaf**



11

# Strateji tərəfdaşlıq səviyyəsinə yüksələn Azərbaycan-Albaniya münasibətləri


# SƏS

№ 119 (6802)

11 iyul 2023-cü il.
Qiymәti 60 qәpik




3

**İLHAM ƏLİYEV: "Azərbaycanla Albaniya arasında yüksək səviyyədə siyasi dialoqun çox yaxşı dinamikası var"**

# Haqqın, ədalətin vurduğu
# TƏRS SİLLƏ




4

**"Əvvəlcə Türkiyənin Avropa İttifaqına yolunu açaq, ondan sonra..."**



9

**Əli Kərimli Sorosun qucağından düşməyə hazırlaşır**



14

**"Arzularımız, hədəflərimiz davamlı, onların həyata keçirilməsinə inamımız böyükdür"**



8



16

**"Yuventus"a UEFA ŞOKU: Konfrans Liqasından kənarlaşdırılacaq**

**Süni intellekt qanunu: Kim kimi idarə edəcək?**



16

# İlham Əliyev: ”Azərbaycan-Özbəkistan münasibətlərinin hərtərəfli inkişafına böyük əhəmiyyət veririk”



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Prezidenti vəzifəsinə keçirilən növbədənkənar seçkilərdə qazandığı parlaq qələbə münasibətilə Şavkat Mirziyoyevə təbrik məktubu ünvanlayıb. Dövlətimizin başçısı səsvermənin nəticələrinin milli iradənin ifadəsinin, Özbəkistan vətəndaşlarının Şavkat Mirziyoyevə olan sonsuz etimadının, inamının və hörmətinin, onun Özbəkistanın hərtərəfli inkişafı, rifahı və tərəqqisi naminə yürütdüyü siyasi xəttə geniş xalq dəstəyinin bariz təzahürü olduğunu qeyd edib.

”Biz ortaq tarixi-mədəni köklər, qardaşlıq kimi möhkəm təməllər üzərində qurulmuş Azərbaycan-Özbəkistan münasibətlərinin hərtərəfli inkişafına böyük əhəmiyyət veririk. Xalqlarımızın iradə və məramından qaynaqlanan, qarşılıqlı inam və dəstəyə əsaslanan dövlətlərarası əlaqələrimizin bugünkü səviyyəsi, tərəfdaşlığımızın yüksələn xətlə inkişaf etməsi xüsusi məmnunluq doğurur”, - deyə dövlətimizin başçısı vurğulayıb.

Son dövrdə ikitərəfli münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasının, qarşılıqlı faydalı əməkdaşlığın inkişafında yeni istiqamətlərin müəyyənləşdirilməsinin sevindirici hal olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev bildirib: ”Əminəm ki, birgə səylərimizlə qardaş ölkələr və etibarlı tərəfdaşlar olan Azərbaycan ilə Özbəkistan arasında ənənəvi dostluq münasibətlərinin inkişafına, çoxşaxəli əməkdaşlığın genişlənməsinə, strateji tərəfdaşlığın daha da dərinləşməsinə nail olacağıq”.



# “Azərbaycanda dini abidələrin bərpası istiqamətində mühüm işlər görülür”

## Prezident İlham Əliyev Müqəddəs Taxt-Tacın dövlət katibini qəbul edib

Prezident İlham Əliyev dünən Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolini qəbul edib. Prezident İlham Əliyev münasibətlərimizin dərinləşdirilməsində qarşılıqlı səfərlərin önəmini qeyd edərək, özünün 2020-ci ildə Vatikana səfərini və Pietro Parolin ilə görüşünü, həmçinin Roma Papası Fransiskin ölkəmizə səfərini məmnunluqla xatırladı. Dövlətimizin başçısı kardinal Pietro Parolinin səfərinin əlaqələrimizin genişlənməsi işinə töhfə verəcəyinə əminliyi vurğuladı. Azərbaycan Prezidenti ilə görüşdən məmnunluğunu ifadə edən kardinal Pietro Parolin Roma Papası Fransiskin salamlarını və ən xoş arzularını, həmçinin ölkəmizdə katolik icmaya göstərilən diqqətə görə təşəkkürünü dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara və xoş sözlərə görə minnətdarlığını bildirdi, onun da salamlarını Roma Papasına çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı Azərbaycanın Müqəddəs Taxt-Tacda səfirliyinin açılmasını qeyd etdi.

Kardinal Pietro Parolin səfirliyin açılmasına görə təşəkkürünü bildirdi, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə təbriklərini çatdırdı. Söhbət zamanı Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi.

Kardinal Pietro Parolin ölkəmizdə dini abidələrin bərpası istiqamətində görülən işləri vurğuladı, katolik kilsəsində aparılan bərpa işlərinə görə Heydər Əliyev Fondunun fəaliyyətini yüksək qiymətləndirdi.

# Bakıda ”Ümummilli Lider Heydər Əliyev və Azərbaycanın xarici siyasəti” adlı konfrans keçirilib






**Dünən ADA Universitetində ”Ümummilli Lider Heydər Əliyev və Azərbaycanın xarici siyasəti” adlı konfrans keçirilib. Tədbirin açılışında ADA Universitetinin rektoru Hafiz Paşayev çıxış edərək iştirakçıları salamlayıb, konfransın işinə uğurlar arzulayıb.**

Konfransda çıxış edən xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, müstəqil xarici siyasət hər bir dövlətin əsas atributlarından biridir. Bütün digər sahələrdə olduğu kimi, ölkəmizin xarici siyasət kursunun əsasının qoyulması da anadan olmasının 100-cü ildönümünü qürurla qeyd etdiyimiz, dərin hörmət və minnətdarlıqla yad etdiyimiz görkəmli dövlət xadimi, Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevin adı ilə bağlıdır.

Nazir, həmçinin qeyd edib ki, Ümummilli Lider hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın dövlətçilik mənafelərini hər şeydən uca tutaraq, müxtəlif ölkələrin Qafqaz və xüsusilə Azərbaycan ilə bağlı maraqlarını, bu bölgədə ambisiyalarını nəzərə alaraq çevik manevrlər və xüsusi taktiki gedişlər etdi. Ulu Öndərin uğurlu xarici siyasət kursu nəticəsində xüsusilə keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı işğalçı tərəfə beynəlxalq təzyiqin gücləndirilməsi kimi məsələ həllini tapmışdı.

”Otuz il davam etmiş hərbi işğala son qoyulması nəticəsində xarici siyasətimizin qarşısında duran ən böyük çağırış olan keçmiş münaqişənin həlli, regionda yeni reallıqlar gündəliyinin yaranması xarici siyasətimizin üfüqlərinin genişlənməsində də rol oynayıb. Bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil və prinsipial xarici siyasət kursunun aparılması nəticəsində ölkəmizin beynəlxalq nüfuzu daha da artmaqdadır. Azərbaycanın postmünaqişə dövründə regionda sülh səyləri xarici siyasət xəttimizdə yeni dövrün başlanğıcının göstəricisidir. İşğaldan azad edilmiş torpaqlarımız bu gün dövlətimizin başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın fəal iştirakı ilə yenidən dirçəlir. Üçrəngli bayrağımız işğaldan azad olunmuş torpaqlarımızda qürurla dalğalanır. Azərbaycan azad etdiyi əraziləri qarış-qarış yenidən qurur və bərpa edir”, - deyə nazir diqqətə çatdırıb.

Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ulu Öndər Heydər Əliyevin xarici siyasət sahəsindəki böyük xidmətlərindən bəhs edib, Ümummilli Liderin Azərbaycanın milli kimliyinin qorunması istiqamətində gördüyü işləri xüsusi vurğulayıb.

Hikmət Hacıyev bildirib ki, 1987-1990-cı illərdə Ulu Öndərə qarşı repressiyalar dövrü idi. Həmin dövrü təhlil etdikdə məlum olur ki, nəinki Ümummilli Lider Heydər Əliyevi siyasi məkandan silmək, hətta onun fiziki cəhətdən məhv edilməsi istiqamətində məqsədli siyasət aparılırdı.

”Tarixçilər öz araşdırmalarında diqqət etməlidirlər ki, biz bəzən ermənilərin Azərbaycana qarşı ərazi iddiaları kontekstində yalnız Qarabağ mövzusuna baxırıq. Amma sənədlərə nəzər yetirdikdə tam aydın olur ki, təkcə Qarabağ yox, Naxçıvan Muxtar Respublikasının da Ermənistana birləşdirilməsi, həmin zonanın Şərqi Ermənistan kimi təsvir edilməsi prosesi var idi. Ulu Öndər Heydər Əliyevin Naxçıvana gəlməsi ilə onların bu istəyi də baş tutmadı. Ulu Öndər Naxçıvanı Qarabağın aqibətini yaşamaqdan xilas etdi. 1993-cü ilə qədər Azərbaycanı tam şəkildə müstəqil hesab etmək olmazdı. Yalnız 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkəmiz tam müstəqil oldu”, - deyə Hikmət Hacıyev vurğulayıb. Konfrans işini panel müzakirələri ilə davam etdirib.

## *Rəsmi xronika*

Prezident İlham Əliyevin Sərəncamı ilə Mustafa Baba oğlu Babanlı Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektoru vəzifəsindən azad edilib.

***

Prezident İlham Əliyev Mirsaleh Miradil oğlu Seyidovun Azərbaycan Respublikası ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi təyin edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyevin Sərəncamı ilə Ceyhun Əkbər oğlu Həsənov Azərbaycan Respublikası ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi vəzifəsindən azad edilib.

***

Prezident İlham Əliyev ”Saxta əmtəə nişanlarının və coğrafi göstəricilərin istifadəsinin qabaqlanması və qarşısının alınması üzrə MDB iştirakçısı dövlətlərinin əməkdaşlığı haqqında Saziş”in icrası ilə bağlı səlahiyyətli orqanların (qurumların) müəyyən edilməsi barədə sərəncam imzalayıb.

# Strateji tərəfdaşlıq səviyyəsinə yüksələn Azərbaycan-Albaniya münasibətləri

## İLHAM ƏLİYEV: "Azərbaycanla Albaniya arasında yüksək səviyyədə siyasi dialoqun çox yaxşı dinamikası var"

Bəli, bu gün beynəlxalq hüquq normalarına, qarşılıqlı inam və etimada, faydalı əməkdaşlığa əsaslanaraq, xarici siyasətini həyata keçirən Azərbaycan dünya dövlətləri, eləcə də qonşu dövlətlərlə münasibətlərini daha da inkişaf etdirməyə nail olmuşdur. Ulu Öndər Heydər Əliyev siyasətini, onun xarici siyasət kursunu yeni dövrün tələblərinə uyğun olaraq davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin beynəlxalq arenada nüfuzunun daha da yüksəlməsinə, milli maraqlarının qorumasına nail olmuşdur. Məhz bu gün Azərbaycanın dünya ölkələri ilə qarşılıqlı etimad səviyyəsində qurulan diplomatik əlaqələr yüksək bir mərhələdədir və bir çox dövlətlər Cənubi Qafqazın lideri olan Azərbaycanla bütün sahələrdə əməkdaşlığın genişləndirilməsinə böyük maraq göstərirlər. Albaniya Prezidenti Bayram Beqayın iyulun 6-da Azərbaycan Respublikasına rəsmi səfəri bu münasibətlərin böyük göstəricisidir. Səfər Azərbaycan Prezidenti İlham Əliyevin dəvəti ilə həyata keçirilib. Səfər çərçivəsində ikitərəfli əməkdaşlıq, Albaniyadan qazın regionun digər ölkələrinə paylanması layihələrinin həyata keçirilməsi ilə bağlı müzakirələr aparılıb.



### ”ƏMİNƏM Kİ, SƏFƏR ÖLKƏLƏRİMİZ ARASINDA SIX İKİTƏRƏFLİ MÜNASİBƏTLƏRİ GÜCLƏNDİRƏCƏK”

Bəli, Mərkəzi və Şərqi Avropa ölkələri, o cümlədən Albaniya ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafı rəsmi Bakının xarici siyasət kursunun vacib istiqamətlərindən biridir. Və bu gün ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlıq edir. Qeyd edək ki, Albaniya həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib və bu dəstək qarşılıqlı olub. Həm işğal, həm də İkinci Qarabağ müharibəsi dövründə Albaniya rəsmilərinin bəyanatları, Azərbaycanın ərazi bütövlüyünə göstərilən dəstək yüksək qiymətə layiqdir. Prezident İlham Əliyev mətbuata bəyanatında bu barədə xüsusi vurğulayıb. Dövlətimizin başçısı bildirib ki, hətta Azərbaycan özünü müdafiə etmək fürsətinə malik olmadığı təşkilatlarda belə, Albaniya qardaş ölkə olaraq bizi dəstəkləyib.

Albaniya Prezidenti Bayram Beqayın iyulun 6-da Azərbaycan Respublikasına rəsmi səfəri bu münasibətlərin böyük göstəricisidir. Səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə Albaniya Prezidenti Bayram Beqayın təkbətək və geniş tərkibli görüşündə iki ölkə arasında əməkdaşlığın perspektivləri müzakirə edilib. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, hazırda yaxın dost və qardaş ölkələr olan Azərbaycanla Albaniya arasında əməkdaşlıq əlaqələri həm siyasi, həm də iqtisadi sahədə dinamik şəkildə inkişaf edir.

Prezident İlham Əliyev Albaniya Prezidenti Bayram Beqayla mətbuata bəyanatında bu səfərinə çox böyük önəm verildiyini söyləyib: ”Biz Albaniya Prezidentinin rəsmi səfərinə çox böyük önəm veririk. Əminəm ki, səfər ölkələrimiz arasında sıx ikitərəfli münasibətləri gücləndirəcək. Mən, həmçinin bu fürsətdən istifadə edərək, ötən il Albaniyaya səfərim zamanı mənə və nümayəndə heyətimə göstərilmiş qonaqpərvərliyə görə, cənab Prezident, Sizə təşəkkürümü bildirmək istəyirəm. Mən, həmçinin qeyd etmək istəyirəm ki, ötən il Albaniyanın Baş nazirini iki dəfə qəbul etdik və bu ilin martında Prezident Azərbaycana işçi səfərə gəlmişdi. Təkcə bu səfərlər əlaqələrimizin nə qədər sıx, dialoqumuzun nə dərəcədə fəal olduğunu nümayiş etdirir”.

### ALBANİYA İLƏ MÜXTƏLİF SAHƏLƏRİ ƏHATƏ EDƏN İKİTƏRƏFLİ ƏMƏKDAŞLIQ AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNİN MƏNTİQİ NƏTİCƏSİDİR

”Biz çox sıx dostluq münasibətləri qurmuşuq və Azərbaycanla Albaniya arasında yüksək səviyyədə siyasi dialoqun çox yaxşı dinamikası var”. Bu sözləri Prezident İlham Əliyev Albaniya Prezidenti Bayram Beqayla keçirilən geniş tərkibdə görüş zamanı deyib. Bunun ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsi baxımından mühüm amil olduğunu söyləyən dövlətimizin başçısı bildirib: ”Mən bu münasibətləri əla adlandırardım. Bu, beynəlxalq təsisatlarda qarşılıqlı dəstəkdə, enerji və iqtisadi inkişaf sahələrində praktiki fəaliyyətdə özünü göstərir”.

Dövlətimizin başçısı onu da vurğulayıb ki, çünki burada bizim dostluğumuz, qarşılıqlı maraq və gələcəklə, ikitərəfli münasibətlərin irəli aparılması və əməkdaşlığın gücləndirilməsi ilə bağlı aydın baxış kimi möhkəm təməl var.

Bəli, göründüyü kimi, müstəqil xarici siyasət həyata keçirən Prezident İlham Əliyevin uğurlu diplomatiyası ilə Azərbaycan əksər dövlətlərin Cənubi Qafqaz regionundakı ən etibarlı tərəfdaşına çevrilib. Mərkəzi və Şərqi Avropa ölkələri ilə fəal əməkdaşlıq edən Azərbaycanın beynəlxalq təşilatlarda dəstək qazanması diplomatiyamızın uğurlarından hesab olunmalıdır. Və bu gün Azərbaycanla Albaniya arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətinin vacib istiqamətlərindən biridir.

Prezident İlham Əliyev və Albaniya Respublikasının Prezidenti Bayram Beqay mətbuata bəyanatlarla çıxışında qeyd etmişdir ki, ölkələrimiz arasında dostluq və qarşılıqlı dəstəyə əsaslanan ikitərəfli əlaqələrdə çox xüsusi dinamika yaranmışdır. Azərbaycan və Albaniya beynəlxalq təşkilatlarda fəal çalışır, ilk növbədə Birləşmiş Millətlər Təşkilatında və İslam Əməkdaşlıq Təşkilatında bir-birimizə dəstək veririk. Eyni zamanda, Azərbaycanın olmadığı təşkilatlarda Albaniyaya ölkəmizi daim dəstəkləyir Prezident İlham Əliyev, həmçinin Azərbaycanın olmadığı təşkilatlarda ölkəmizi dəstəklədiyinə görə Albaniyaya minnətdarlıq edib: ”Ötən ilki Frankofoniya Sammitində Azərbaycana verdiyi dəstəyə görə mən cənab Prezidentə və Albaniya hökumətinə artıq öz minnətdarlığımı bildirdim. O vaxt Frankofoniya təşkilatının üzv dövlətlərindən biri yekun sənədə bir bəndi əlavə etmək və qəbul etdirməyə cəhd göstərdi. Bu, anti-Azərbaycan mahiyyəti olan bənd idi. Albaniya həmin bəndi bloklayan ölkə oldu. Həmin addım dostluğun, eləcə də ölkələrin ərazi bütövlüyü və suverenliyi kimi beynəlxalq hüququn əsas prinsiplərinə qəti sadiqliyin təzahürü oldu. Hətta Azərbaycan özünü müdafiə etmək fürsətinə malik olmadığı təşkilatlarda belə, bizim Albaniya kimi qardaş ölkəmiz var və o, bu dəstəyi verdi. Buna görə biz çox minnətdarıq”.

### ”BU İLİN SONUNADƏK BİZ AVROPA İTTİFAQINA ÜZV OLAN DAHA ÇOX SAYDA ÖLKƏLƏRİN AZƏRBAYCANDAN TƏBİİ QAZI ALACAĞINI GÖZLƏYİRİK”

Prezident İlham Əliyev bəyanatında ölkələr arasında ticari, iqtisadi məsələlər, sərmayə imkanları nəzərdən keçirilib, əməkdaşlığın əsas meyarı olan enerji məsələsinə dair fikirlərini bildirib. Albaniyanın qazlaşdırılması layihəsinin uğurlu gedişini qeyd edən ölkəmizin başçısı bildirmişdir ki, ilin sonuna qədər layihənin texniki əsaslandırılması başa çatacaqdır. Qazpaylayıcı şəbəkəsinin quraşdırılmasından sonra isə bu ölkəyə Azərbaycan sərmayəsi daxil olacaq və ölkəmiz üzərinə götürdüyü öhdəliyi laqincə sona çatdıracaqdır: ”Bu ilin sonunadək biz Avropa İttifaqına üzv olan daha çox sayda ölkələrin Azərbaycandan təbii qazı alacağını gözləyirik. Həmçinin əvvəlki təmaslarımzda müzakirə olunan mövzulardan biri Albaniyanın qazlaşdırılması layihəsi idi və sınaq layihəsi seçilmişdi. Bu gün bizə nümayəndə heyətlərinin üzvləri tərəfindən məlumat verildiyi kimi, işlər cədvələ uyğun gedir və ilin sonunadək bizdə artıq bu layihənin texniki-iqtisadi əsaslandırılması olacaq. Bundan sonra isə ümid edirəm ki, biz dərhal investisiyalara başlayacağıq. Bu, qazpaylayıcı şəbəkəsini qurmaq üçün Albaniyaya yatırılacaq xalis Azərbaycan investisiyası olacaq”.

Azərbaycan Prezidenti İlham Əliyev mətbuata Bəyanatında, həmçinin enerrji sahəsinə toxunaraq bildirib ki, bu vaxta qədər əməkdaşlığımızın əsas meyarı enerji sektoruna aid olub: ”Həmin əməkdaşlıq nəinki ölkələrimiz, o cümlədən böyük sayda digər ölkələr, xüsusən də Cənub Qaz Dəhlizinin hissəsi olan TAP üçün əhəmiyyətlidir. Həmin boru kəməri Albaniyanın ərazisindən keçir. Hazırda o, enerji təhlükəsizliyinin mənbəyidir, Azərbaycan və Avropa İttifaqının qaz təchizatı sahəsində fəal işini, eləcə də Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış Enerji sahəsində Strateji Tərəfdaşlıq sənədini nəzərə alsaq, bütün bunlar, təbii ki, ölkələrimiz arasında sıx əməkdaşlıq üçün mühüm meyarlardır. Çünki bir çox Avropa ölkələri üçün enerji təhlükəsizliyi, həmçinin Cənub Qaz Dəhlizi vasitəsilə təmin edilir. Həmin ölkələrin sayı artır. Avropa İttifaqı bazarına Azərbaycanın təbii qaz ixracı artır. Həcmlər artır və onun coğrafiyası genişlənir”.

Eyni zamanda Tiranada və Bakıda hər iki ölkənin səfirliklərinin fəaliyyətə başlamasını qeyd edən cənab Prezident bundan sonra da ölkələrimiz arasında fəal siyasi dialoqun, qarşılıqlı əməkdaşlığın inkişafı sahəsində səylərin artırılacağını vurğulamışdır.

Bir sözlə, ölkələrimiz arasında mövcud olan münasibətlərdən, bunun inkişafı meyillərindən belə bir nəticə hasil olur ki, Azərbaycan-Albaniya əlaqələri yaxın gələcəkdə daha da inkişaf edəcək və bütövlükdə regionda sülhə, sabitliyə, demokratik inkişafa, sosial-iqtisadi yüksəlişə təkan verəcəkdir. Dövlət başçımızın dediyi kimi: ”Əminəm ki, səfər ölkələrimiz arasında sıx ikitərəfli münasibətləri gücləndirəcək”.

***RƏFİQƏ KAMALQIZI***

# Haqqın, ədalətin vurduğu TƏRS ŞİLLƏ

***Ermənistanın Azərbaycana qarşı məhkəmə işi üzrə 12 may 2023-cü il tarixli müraciəti ilə bağlı Beynəlxalq Ədalət Məhkəməsinin qərarı təkcə separatçılara deyil, bütövlükdə dünya ermənilərinə haqqın, ədalətin tərs şilləsi oldu. Çünki bütün dünya ictimaiyyəti müşahidə etdi ki, ermənilərin istəklərinin də, niyyətlərinin də qanundan kənar, ədalətdən uzaq olduğunu mötəbər bir beynəlxalq qurum, beynəlxalq hüquqi təşkilat da təsdiqlədi və bu fakt artıq xam xəyallarda olan erməni cəmiyyəti üçün zərbə hesab olunur.***



Beynəlxalq Ədalət Məhkəməsinin qərarı Azərbaycanın öz sərhədlərinə nəzarət etmək hüququnu təsdiq edir və Ermənistanın Laçın yolundakı sərhəd-keçid məntəqəsinin ləğvi tələbinin əsassızlığını sübut edir. Eyni zamanda, sözügedən məhkəmənin bu qərarı o deməkdir ki, Azərbaycanın Ermənistanla şərti dövlət sərhədində sərhəd-buraxılış məntəqəsi yaratmaq üçün suveren hüququ olduğu rəsmən qəbul edilir. Deməli, bununla çox aydın şəkildə bildirilir ki, Azərbaycanın öz silahlı qüvvələrini Laçın yolundan çıxarmaq kimi bir öhdəliyi ola bilməz. Daha dəqiq desək, öz suveren hüququ əsasında bu ilin aprelində Azərbaycanın yaratdığı sərhəd-keçid məntəqəsinin fəaliyyətinin məhkəmənin 22 fevral 2023-cü il tarixli qərarını pozması ilə bağlı Ermənistanın iddiası əsassız sayılır və rədd edilir. Həmin iddia ilə yanaşı erməni cəmiyyətinin bəhanələri də, uydurmaları da, xam xəyalları da, ümidləri də rədd edilir, hansıki, bu, uzun zaman, uzun dövr ərzində ermənilərin başqalarına məxsus olanı mənimsəmək arzularını, planlarını puça çıxarmış olur və deməli, belə bir qərar onlar üçün tərs sillədir.

İstər İrəvanın, istər Qarabağ iqtisadi rayonunun, istərsə də bütün dünyanın separatçı, təxribatçı, ara qarışdırmaqda meyilli olan erməniləri növbəti fiasko ilə üzləşdiklərini özləri hamıdan yaxşı bilirlər. Yaxşı bilirlər ki, haqsız olduqlarının məhz qanunun dili ilə bildirilməsi, təsdiqlənməsi onlar üçün "son" deməkdir və bundan sonra istinad ediləcəyinə ümid etməyə belə instansiya yoxdursa, deməli, dalana dirənmiş vəziyyətdədirlər. Təbii ki, onların şikayətçi, yaxud, ən azından narazı olduqları, ya da olacaqları bəllidir və gözləniləndir də. Məsələ burasındadır ki, boş-boş şikayətlər və narazılıqlardan başqa çarələri də qalmayıb, çünki əvvələ, erməni cəmiyyəti nə bunun əksini tələb edə, nə bunun əksini sübut edə, nə də sehrli çubuqla qərarı dəyişə bilər və belə olan halda həmin o qərarın fonunda onlara dəyən şillənin təsirindən hansısa "səs salmaları" anlaşılandır. Erməni cəmiyyətində uydurulan "blokada" nağılının da, miflərin də mənasız, puç olması həmin cəmiyyət üçün daha bir zərbə sayılır və mövcud reallıqlardan nəticə çıxarmadıqları təqdirdə acısını çəkmək məcburiyyətində qalmaları növbəti dərs hesab olunur.

Artıq İrəvanda, Xankəndidə, lap elə Parisin özündə belə kimlərsə qəzəblənib Beynəlxalq Ədalət Məhkəməsinin qərarından narazılığını ifadə etsələr, etirazlarını bildirsələr belə heç nəyə təsir edə bilməyəcəklər. Bundan sonra nəyi isə dəyişmək mümkünsüzdür. Haqqın, ədalətin, qanunun Azərbaycan tərəfində olduğu rəsmən etiraf edildisə, bunan sonra ermənilərin bu rakursda nəyə isə ümid etmələri mənasızdır. Əslində, dəyişdirilməsi, yığışdırılması lazım olan ermənilərin beyinlərinə doldurulan yalanlar, uydurma iddialardır, miflərdir ki, onlar buna nail olmağa çalışmalıdırlar. İsterik bəyanatlar, absurd fikirlər, ittihamlar erməni cəmiyyətini fiaskodan xilas edən deyil və bunu özləri nə qədər tez başa düşsələr bir o qədər fayda qazana bilərlər. Hər bir halda, ziyanın yarısından qayıtmağın özü də faydalıdır və ermənilər bu həqiqəti tez dərk etsələr belə vəziyyətə, yenə də məğlub duruma düşməkdən yaxa qurtara bilərlər, əks halda belə tərs sillə onlar üçün davamlı olacaq. Onsuz da Ermənistan tərəfi hər həftə arzu etmədiyi məğlubiyyətlərlə qarşılaşmaqdadır və artıq istənilən istiqamətdə, istənilən müstəvidə və platformada Azərbaycan qarşısında məğlub duruma düşür, hansıki bunun davamlı olacağı da ermənilərin özləri tərəfindən belə təkzib edilmir.

Yeri gəlmişkən, xatırladaq ki, Laçın-Şuşa yolunda ekoloji hərəkat fəallarının aksiyası başlayan zaman Beynəlxalq Məhkəməyə müraciət edərək Azərbaycana qarşı hansısa tədbirlərin görülməsi üçün çalışan Ermənistan tərəfi o zaman da nəyə isə nail ola bilmədi. Əsrin üçdə birinə yaxın müddət ərzində rahat keçiddən sui istifadə edən, bu keçidlə də istədiyi yükləri, hətta hərbi təyinatlı yükləri, silah-sursatı, hərbi texnikanı Azərbaycan ərazilərinə daşıyan erməni separatçıları indi bundan məhrum olmaları ilə təbii ki, barışa bilmirlər və indi də cabalarının nəyə görə olduğu bəll məsələdir. Ermənistan-Azərbaycan sərhədində Laçın sərhəd-keçid məntəqəsinin quraşdırılmasının guya "qanunsuzluğu" ilə bağlı Ermənistanın mayın 15-də müvəqqəti tədbirlərin tətbiqi ilə bağlı sözügedən məhkəməyə yeni müraciət ünvanlaması həmin yoldan öz çirkin niyyətləri, təxribatları, separatçılıq məqsədləri üçün maneəsiz keçid olaraq istifadə etmək niyyətlərinin təzahürü idi. Keçən cümə günü Beynəlxalq Ədalət Məhkəməsinin bu tələbi rədd etməsi onların arzu və niyyətlərini puça çıxardı və ən əsası da Azərbaycanın haqlı olduğu, qanunların da Azərbaycanın tərəfində olduğu bir daha təsdiq edildi. Bununla da nəyə isə ümid edən erməni cəmiyyəti öz cavabını almış oldu. Daha dəqiq desək, ermənilərin sərsəm, axmaq planları elə məhz Beynəlxalq Ədalət Məhkəməsində dəfn edildi, İrəvanın Bakıya qarşı nəzərdə tutduğu "beynəlxalq təzyiq" barədə aruları da puç oldu.

Beynəlxalq Ədalət Məhkəməsinin qərarı ona görə ermənilərə tərs sillə kimi dəydi ki, məhz Laçın dəhlizi ilə bağlı istifadə etmək cəhdləri belə keçmişdə qalmış oldu. Bu qərar onu göstərir ki, Qarabağ məsələsinin Azərbaycanın daxili işi olduğu beynəlxalq müstəvidə belə qəbul olunur və hansıki, qanunla da təsdiqləndi. Belə bir hal ermənilər üçün heç də arzuolunan hesab oluna bilməz və indi erməni cəmiyyəti bunun nə demək olduğunu yaxşı başa düşməlidir. Başa düşməlidir ki, artıq erməni separatizminin "yolunun bağlanması" beynəlxalq səviyyədə belə qəbul olunur və qondarma, eləcə də dırnaqarası "dövlət qurmaq" iddiaları da, Azərbaycan ərazilərində "müstəqillik" iddiaları da tarixin arxivinə düşmüş oldu. Həmin cəmiyyət anlamalıdır ki, Beynəlxalq Ədalət Məhkəməsinin bu qərarı Azərbaycanın 44 günlük müharibədə qazandığı böyük Zəfərdən sonra növbəti və əsas strateji qələbəsi, uğurudur. Elə ən böyük tərs sillənin biri də məhz bu rakursda separatçı ermənilər üçün daha ağrılı oldu.

Qondarma "etnik təmizləmə", "humanitar fəlakət" kimi erməni yalanları, uydurmaları məhz Beynəlxalq Ədalət Məhkəməsində məlum qərarla birdəfəlik basdırıldı ki, bu, bütövlükdə dünya ermənilərinin, onların lobbilərinin, diasporlarının belə əl-qolunu bağlamış oldu. Çünki həmin qərar təsdiq edir ki, rəsmi Bakının mövqeyini, Qarabağın Azərbaycanın daxili işi olduğunu beynəlxalq güclər qəbul edir. Bütün fəaliyyəti, təxribatçılıq əməlləri iflasa uğrayan Ermənistanın ən böyük və son ümidi olan Beynəlxalq Ədalət Məhkəməsinin məlum qərarı bu baxımdan ermənilər üçün çox ciddi zərbə sayılır. Çünki bu qərarla onların onillər boyu göstərdikləri çirkin fəaliyyətin mənasız, boş, nəticəsiz olduğu öz təsdiqini tapdı. Bu qərar, yalnız beynəlxalq səviyyədə Ermənistanın həyata keçirmək istədiyi təxribatların mənasız və nəticəsiz olduğunu ortaya qoymadı, eyni zamanda ötən əsrin 90-cı illərindən, daha dəqiq desək, 1988-ci ildən ermənilərin başlatdıqları çürük ideyaların, ələlxüsus da çirkin "miatsum" ideyasının beynəlxalq səviyyədə, özü də beynəlxalq hüquqla sıradan çıxarılmasını təmin etdi. Deməli, illər, onilliklər boyu çirkin niyyətlər uğrunda dəridən-qabıqdan çıxanların bütün əməyi boşa çıxdı, zay oldu, mənasızlığı bəlli oldu və indi elə həmin o separatçı erməni cəmiyyəti üçün bundan böyük zərbə, tərs sillə ola bilməzdi. Bu, Azərbaycanın apardığı haqq işin, ədalətli mübarizənin, bir sözlə, haqqın, ədalətin vurduğu tərs sillədir.

***İnam Hacıyev***

# Qlobal çağırışların təşəbbüskarı

## İlham Əliyev: "Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə "Bandunq prinsipləri" əsasında ədaləti, beynəlxalq hüququ və üzv ölkələrin qanuni maraqlarını qətiyyətlə qorudu"

Beynəlxalq münasibətlər sistemində güclü ölkə olan Azərbaycanın regionun lider dövləti olaraq bu ərazidə baş verən istənilən məsələ ilə əlaqədar maraqları nəzərə alınır. Ölkəmiz nəinki regional layihələrin iştirakçısı, həmçinin təşəbbüskarı kimi çıxış edir. Bu uğurların əsasında Azərbaycanın uzaqgörən və praqmatik xarici siyasət strategiyası dayanır. Azərbaycanın dinamik inkişafı, bütün sahələri əhatə edən məqsədyönlü islahatlar və əldə edilən nailiyyətlər beynəlxalq müstəvidə yüksək qiymətləndirilir. Beynəlxalq aləmdə söz sahibi olan Azərbaycan bir sıra beynəlxalq qurumlarda, sadəcə, üzv dövlət kimi təmsil olunmur, eyni zamanda, bir çox qərarların qəbulunda və icrasında yaxından iştirak edir. Dünyanın 120 ölkəsi arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasında və inkişafında mühüm siyasi platforma olan Qoşulmama Hərəkatı isə, məhz Azərbaycanın sədrliyi dövründə özünün ən uğurlu dövrünü yaşayır. Ölkəmizin Qoşulmama Hərəkatına üzv olduqdan cəmi 8 il sonra ölkələrin yekdil qərarı ilə 2019-2022-ci illər üzrə təşkilata sədrlik etmək kimi statusa malik olması da Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyini gücləndirməsi, ikitərəfli və çoxtərəfli münasibətlərini inkişaf etdirməsi baxımından ölkəmizə mühüm dividendlər gətirmiş oldu. Azərbaycan Qoşulmama Hərəkatına qlobal anlamda çox çətin bir dönəmdə sədrliyi öz üzərinə götürməsinə baxmayaraq, çox effektiv və konstruktiv sədrlik nümayiş etdirdi. Qoşulmama Hərəkatı ölkələrinin Azərbaycana tam etimadının nəticəsidir ki, üzv dövlətlərin yekdil rəyinə əsasən, ölkəmizin təşkilata sədrliyi daha bir il, yəni 2023-cü ilin sonuna kimi uzadıldı. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirmişdir: ”Sədrliyimizin müddəti yekdil qərarla daha bir il uzadıldı. Biz Azərbaycanın sədrliyinə göstərdikləri dəstəyə görə üzv dövlətlərə minnətdarıq”. Onu da qeyd etmişdir ki, Qoşulmama Hərəkatının sədri olaraq məqsədimiz ədaləti və beynəlxalq hüququ müdafiə etməkdir. Pandemiyanın başlamasından dərhal sonra COVID-19-a qarşı qlobal səyləri səfərbər etmək təşəbbüsü ilə çıxış edən məhz Qoşulmama Hərəkatı oldu”.

### BAKI QLOBAL LİDERLİYİ ÜZƏRİNƏ GÖTÜRDÜ

Dünyada nüfuzu getdikcə artan və regionda aparıcı aktora çevrilən Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi 2019-cu ildən etibarən həyata keçirməyə başlayıb. Azərbaycanın sədrliyinin COVID-19 pandemiyası dövrünə təsadüf etməsinə baxmayaraq, dünya ölkələrinin əksəriyyətinin özünə qapandığı zamanda Bakı qlobal liderlik rolunu üzərinə götürdü, qlobal problemin öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk dövlətlərdən oldu. Məhz Azərbaycanın sədrliyi ilə Qoşulmama Hərəkatı dünya ictimaiyyətini pandemiya ilə mübarizədə səfərbər etdi. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin mayında Qoşulmama Hərəkatının COVID-19 ilə mübarizəyə həsr edilən onlayn sammiti keçirildi. Həmin ilin dekabrında isə BMT Baş Assambleyasının pandemiya ilə mübarizəyə həsr edilən Xüsusi Sessiyası təşkil olundu. Bu sessiya pandemiya ilə mübarizə sahəsində ən qlobal tədbir hesab olunur. Azərbaycanın təşəbbüsü ilə həm BMT Baş Assambleyasında, həm də BMT-nin İnsan Hüquqları Şurasında vaksinlərin ədalətli bölüşdürülməsinə dair qətnamələr qəbul edildi. Bütün bunlarla yanaşı, Qoşulmama Hərəkatına üzvlük və sədrlik Azərbaycana Ermənistanın təcavüzünə qarşı mübarizədə güclü beynəlxalq dəstək qazandırıb. Təsadüfi deyil ki, 2020-ci və 2022-ci illərdə BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı irəli sürülmüş qərəzli təşəbbüslərin qarşısı Hərəkata üzv dövlətlər tərəfindən alındı. Qoşulmama Hərəkatı üzvlərinin dəstəyi Təhlükəsizlik Şurası çərçivəsində anti-Azərbaycan qətnamənin qəbul edilməsinin qarşısını almağa imkan verdi.

### ”AZƏRBAYCAN ÜMUMDÜNYA SƏHİYYƏ TƏŞKİLATINA 10 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ KÖNÜLLÜ TÖHFƏ VERİB”




İyulun 5-də Bakı Konqres Mərkəzində Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun ”Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli” mövzusunda keçirilən nazirlər görüşü bir daha onu göstərir ki, Azərbaycan təşkilatın fəaliyyətinə mühüm töhfələr verir. Eyni zamanda, Azərbaycanın növbəti dəfə qlobal məsələlərin müzakirə olunduğu mühüm toplantıya ev sahibliyi etməsi ölkəmizin multilateralizmə və qlobal həmrəyliyə verdiyi önəmin təzahürüdür. Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun ”Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli” mövzusunda nazirlər görüşündə Prezident İlham Əliyev çıxışında Hərəkata sədrliyi dövründə Azərbaycanın prioritetlərini diqqətə çəkib. Ehtiyacı olan ölkələrə yardım göstərilməsinin Azərbaycanın sədrliyinin prioritetlərindən biri olduğunu deyən dövlətimizin başçısı Azərbaycanın əksəriyyəti QH-yə üzv olan 80-dən çox ölkəyə ya ikitərəfli qaydada, ya da Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə COVID-19 ilə bağlı maliyyə və humanitar dəstək göstərdiyini bildirib: ”Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları məbləğində könüllü töhfə verib. Biz, həmçinin beş ölkəni peyvəndlə təmin etmişik”. Afrika və inkişaf etməkdə olan kiçik ada dövlətlərinə postpandemiya dövründə bərpanı dəstəkləmək üçün iki qlobal çağırış elan etdiyini xatırladan Prezident İlham Əliyev Azərbaycanın ilk donor kimi hər iki çağırış üçün 1 milyon ABŞ dolları ayırdığını diqqətə çatdırıb.

”Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə "Bandunq prinsipləri" əsasında ədaləti, beynəlxalq hüququ və üzv ölkələrin qanuni maraqlarını qətiyyətlə qorudu”, - deyən Prezident İlham Əliyev üzv ölkələrin yekdil qərarı ilə Azərbaycanın 2019-2022-ci illər üçün sədrliyi öz üzərinə götürdüyünü xatırladaraq, qeyd edib ki, beynəlxalq ictimaiyyət COVID-19 pandemiyası ilə necə mübarizə aparacağı barədə çaşqın vəziyyətdə olarkən, bu çağırışla mübarizədə qlobal səyləri birləşdirən məhz Qoşulmama Hərəkatı olub.

Azərbaycanın sədrliyinin ən böyük uğurlarından biri də həmin dönəmdə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi və Gənclər Təşkilatı təsis olundu. Hərəkatın 61 illik tarixində ilk dəfə olaraq Şuşada Hərəkata üzv ölkələrin gənclərini birləşdirən Gənclər Təşkilatı yaradıldı. ”Hərəkatın institusional inkişafı, xüsusən də müvafiq olaraq 2021-ci və 2022-ci illərdə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin və Qoşulmama Hərəkatı Gənclər Təşkilatının yaradılması Azərbaycanın sədrliyinin növbəti nailiyyətidir. Biz hazırda Qoşulmama Hərəkatının qadınlar platformasının yaradılması üzərində işləyirik. İnstitusional davamlılığa doğru atılan bu addımlarla biz növbəti sədrlərə mütləq uğurlu bir miras qoyacağıq” - deyə Prezident diqqətə çatdırıb.

### ”ERMƏNİSTAN İŞĞAL ETDİYİ ƏRAZİLƏRDƏ URBİSİD, KULTURSİD VƏ EKOSİD TÖRƏTMİŞDİR”

Azərbaycan 44 günlük Vətən müharibəsində tarixi ədaləti bərpa edərək regionda yeni reallıqlar yaratmış oldu. Torpaqlarımızın 30 ilə yaxın işğal altında olmasına baxmayaraq, münaqişənin sülh yolu ilə həllinə nail ola bilmədi. Ərazi bütövlüyünü və tarixi ədaləti hərbi-siyasi yolla bərpa etdi. BMT Təhlükəsizlik Şurası qətnamələrinin icrasını özü təmin etdi. Ermənistan silahlı qüvvələrinin ölkəmizə hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi -Qarabağ, eləcə də ona bitişik olan 7 rayonun ərazisi işğal olunmuş, bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. BMT Təhlükəsizlik Şurası 1993-cü ildə münaqişənin sülh yolu ilə həlli, işğal olunmuş ərazilərin azad edilməsi, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması haqqında 822, 853, 874, 884 nömrəli qətnamələr qəbul etmişdir. Lakin Ermənistan bu qərarların heç birinə əməl etmədi. 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan öz torpaqlarını azad etdi və ərazi bütövlüyünü bərpa etdi. Xalqımızın inamını özünə qaytaran, Azərbaycan dövlətinin və xalqının qüdrətini, sarsılmaz iradəsini, Ordumuzun gücünü beynəlxalq səviyyədə nümayiş etdirən möhtəşəm Qələbə yeni reallıqlar yaradıb. Zəfərimiz bütün dünyaya xalqımızı yenilməz bir xalq kimi təqdim edib. 2020-ci il sentyabrın 27-də Azərbaycan Prezidentinin siyasi iradəsi, diplomatik gücü və hərbi sərkərdəlik bacarığı nəticəsində 30 il işğal altında qalan torpaqlarımız 44 gün ərzində düşməndən azad edildi. Çıxışında tarixi dövrə nəzər salan Cənab Prezident Ermənistanın Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin təxminən 20 faizini işğal etdiyini, həm Ermənistanda, həm də Azərbaycanın işğal olunmuş ərazilərində etnik təmizləmə həyata keçirdiyin diqqətə çatdırıb. ”Bunun nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrildi. Ermənistan 1992-ci ildə Xocalı şəhərində 613 azərbaycanlını, o cümlədən 106 qadını və 63 uşağı yalnız etnik mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirdi” - deyən dövlət başçısı ərazilərimizin işğaldan azad edildikdən sonra Azərbaycanın indi bir sıra nəhəng çağırışlarla üz-üzə olduğunu diqqətə çəkib: ”Keçmişdə işğal altında olmuş ərazilərdəki dağıntıların miqyasından dəhşətə gəldik. Azərbaycanın şəhər və kəndləri Ermənistan tərəfindən qəsdən dağıdılmış, talan olunmuş, bütün mədəni və dini abidələr, məscidlər təhqir olunmuş, qarət edilmişdir. Ermənistan işğal etdiyi ərazilərdə urbisid, kultursid və ekosid törətmişdir. İşğal altında olmuş ərazilərdəki 67 məsciddən 65-i dağıdılıb, qalanlarından isə donuz və inəklər üçün tövlə kimi istifadə edilib ki, bu da bütün dünya müsəlmanlarına qarşı təhqirdir. Altmış min hektar meşəlik məhv edilmiş, kəsilmiş və daşınmışdır, torpaqlarımız və çaylarımız çirkləndirilmiş və zəhərləndirilmişdir. Ermənistan indi isə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə sərhədində transsərhəd ekoloji fəlakət törətməkdə davam edir. Bununla Ermənistan 1991-ci il Transsərhəd kontekstdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Konvensiyasından (Espoo Konvensiyası) irəli gələn öhdəliklərini pozmuş olur. Bu Konvensiyada ölkələrin mənfi transsərhəd təsirlərdən qaçmaq üçün bir-biri ilə məsləhətləşmələr aparmasının vacibliyi açıq şəkildə qeyd edilir”.

### ”MİNA PROBLEMİ ERMƏNİSTAN TƏRƏFİNDƏN AZƏRBAYCAN XALQININ FUNDAMENTAL İNSAN HÜQUQLARININ POZULMASIDIR”

Ermənistanın işğalının digər mənfi fəsadının isə minalar olduğunu bildirən Cənab Prezident Azərbaycanın hazırda dünyada minalarla ən çox çirkləndirilmiş ön ölkə sırasında olduğunu qeyd edib. ”2020-ci ilin noyabrında Vətən müharibəsi başa çatdıqdan sonra mina partlayışı nəticəsində təxminən 300 azərbaycanlı həlak olub və ya ağır yaralanıb. İşğaldan azad edilmiş ərazilərdə baş verən hər bir mina partlayışı Ermənistanın törətdiyi hərbi cinayətlərin uzun siyahısının davamıdır. Mina problemi Ermənistan tərəfindən Azərbaycan xalqının fundamental insan hüquqlarının pozulmasıdır. 2020-ci ildə kapitulyasiyadan sonra da Ermənistan külli miqdarda mina istehsalını davam etdirirdi və onları Laçın sərhəd-gömrük buraxılış məntəqəsi yaradılana qədər Azərbaycanın Qarabağ bölgəsinə daşıyırdı”.

Minaların yenidənqurma prosesini və keçmiş məcburi köçkünlərin azad edilmiş ərazilərə qayıdışını ləngitdiyini qeyd edən Cənab Prezident bildirib ki, bunu nəzərə alaraq, Azərbaycan humanitar minatəmizləmə üzrə xüsusi milli Dayanıqlı İnkişaf Məqsədi müəyyənləşdirib: ”Bundan başqa, Azərbaycan qlobal miqyasda humanitar minatəmizləmə səylərini dəstəkləyir və minatəmizləmənin 18-ci Dayanıqlı İnkişaf Məqsədi olması təklifini irəli sürmüşdür”. Dövlət başçısı Qoşulmama Hərəkatının üzv dövlətlərin səsimizi qlobal miqyasda eşitdirmək üçün Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılması təklifini dəstəkləyəcəklərini bildirib. Bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan işğaldan azad edilmiş 10 min kvadratkilometrlik ərazidə özünün maliyyə imkanları hesabına irimiqyaslı yenidənqurma işlərini uğurla həyata keçirir.

Göründüyü kimi, paytaxt Bakı Qoşulmama Hərəkatının daha bir mühüm tədbirinə uğurla ev sahibliyi edir. Təşkilata Azərbaycanın sədrliyi dövrünə nəzər salsaq görərik ki, bu müddət ərzində beynəlxalq hüququ, sülhü və sabitliyi daim təşviq edib, ölkələrarası sağlam münasibətlərin formalaşmasında mühüm rol oynayıb.

***Zümrüd BAYRAMOVA***

# “Qoşulmama Hərəkatı dünyanın ən böyük təşkilatlarından biridir”



**“Qoşulmama Hərəkatı dünyanın dövlət sayına və əhatə etdiyi coğrafiyaya görə ən böyük təşkilatlarından biridir. Bu təşkilatda 120-dən artıq dövlət və 10-dan artıq beynəlxalq təşkilat təmsil olunur. Təxminən 15-ə yaxın dövlətin beynəlxalq təşkilatı müşahidəçi qismində bu hərəkatda təmsil olunur. Bu baxımdan Qoşulmama Hərəkatı dünyanın ən böyük təşkilatlarından biridir”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Mahir Abbaszadə deyib.**

Onun sözlərinə görə, Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik etdiyi dövrdə hərəkatın dünyada gedən proseslərə münasibəti, dünyada sülhün bərqərar edilməsi və insan hüquq və azadlıqlarının təmin olunması ilə bağlı tutduğu mövqe bir daha Azərbaycanın öz sözünü deməsinə imkan verdi: ”Azərbaycan uzun müddət ərazisi işğal altında qalan, 1 milyondan artıq məcburi köçkün və qaçqın problemi ilə üz-üzə qalan bir dövlət olaraq Qoşulmama Hərəkatına üzv olan dövlətlərin bu hallar ilə qarşılaşmaması üçün addımlar atır.

Qoşulmama Hərəkatının Bakıda baş tutan tədbiri isə bir çox məqamlarla yadda qaldı. Ən əsas məqam isə Azərbaycan Prezidentinin bu tribunadan istifadə edərək, bütövlükdə Cənubi Qafqazda davamlı sülhün təmin olunması istiqamətindəki fikirləri bir daha ifadə etməsi oldu.

Bu gün Azərbaycanın paytaxtı Bakı şəhəri dünyanın ən mühüm mərkəzlərindən birinə çevrilib. Xüsusilə siyasi tədbirlərin keçirilməsi, dialoqların təşkil edilməsi, müxtəlif dövlət və hökumət üzvlərinin Azərbaycanda sərbəst şəkildə dialoq qurması baxımından da paytaxt Bakı öz sözünü demiş oldu”.

## Rus hərbi ekspert:

# “Tezliklə Azərbaycan-Ermənistan sülh müqaviləsi bağlanacaq”

***Tanınmış rusiyalı hərbi ekspert Aleksandr Xramçixin Ermənistanın siyasi, hərbi və iqtisadi vəziyyəti ilə bağlı caliber.az-a müsahibəsində maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.***

***- Aleksandr Anatolyeviç, sizcə, Moskva, Brüssel və Vaşinqtonda Azərbaycan-Ermənistan nizamlanması üzrə son danışıqlarda hər hansı irəliləyiş oldumu?***

- Mən bu danışıqların təfərrüatlarına varmazdım, çünki Ermənistanın Qarabağı təslim etməsi və sadəcə olaraq hər üç danışıqlar platformasında özü üçün hansısa minimum məqbul şərtlərlə danışıqlar aparmağa çalışması mənə az-çox aydındır. Üstəlik, Rusiya, Avropa və Amerika danışıqlarında belə tendensiya müşahidə olunur.

***- Bəs Ermənistan danışıqlar prosesinin əsas vasitəçilərinin moderatorluğu altında hansı minimum şərtlərə nail ola bilər?***

- Düşünürəm ki, vasitəçilər öz maraqlarından asılı olaraq fərqli davranacaqlar. İstənilən halda Qərb ermənilərin bu siyasətinə töhfə verəcək, Rusiya isə Ermənistanın özündən daha çox erməni olmayacaq. Və əgər Ermənistan Qarabağı təslim edirsə, Rusiya niyə buna müdaxilə etməlidir?

***- Sülh sazişinin bağlanma ehtimalının kifayət qədər yüksək olduğunu demək istəyirsiniz?***

- İnanıram ki, bu, mütləq baş verəcək, baxmayaraq ki, vaxtı dəqiq təxmin edə bilmərəm.

***- Bununla belə, İrəvanın məqsədyönlü şəkildə bu anı gecikdirdiyi hələlik göz qabağındadır. Paşinyan bir tərəfdən açıq şəkildə Qarabağı Azərbaycan ərazisi kimi tanıyır, eyni zamanda Bakını mifik "Laçın yolunun blokadası"nda ittiham edir, "Ermənistanın təhlükəsizliyi" və sair məsələləri danışıqlara sövq etmək cəhdini kənara qoymur...***

- Bu haqda danışmasaydı, qəribə olardı. Çünki o zaman daxili auditoriyaya birbaşa xəyanət aşkar olardı. Ona görə də Paşinyanın bu haqda danışması tamamilə təbiidir.

***- Bəs Ermənistanın İran və Hindistandan silah alması da daxili auditoriya üçün nəzərdə tutulub?***



- Mənə elə gəlir ki, söhbət böyük silah alışından getmir. Təbii ki, 2020-ci ildə İkinci Qarabağ müharibəsindən sonra Ermənistan dəhşətli vəziyyətdədir. Mən hərbi cəhətdən nəzərdə tuturam, ona görə də o, hansısa silah almaqla bu boşluğu birtəhər kompensasiya etməlidir.

***- İrəvanın Qarabağla bağlı heç bir revanşist planı yoxdurmu...***

- Hansı revanşist planlardan danışmaq olar. Bu cəfəngiyyatdan başqa bir şey deyil.

***- Əvvəllər Ermənistana Rusiya Federasiyasından hərbi tədarükün bərpa olunmasının mümkünlüyünü istisna etmirdiniz. Bu nə dərəcədə realdır?***

- Açığı, bəli. Amma bunun üçün uyğun hallar və bəzi şərtlər olmalıdır. Niyə də yox.

***- Məsələn, Ermənistan-Azərbaycan sərhədində KTMT missiyasının yerləşdirilməsi şərtləri, Ermənistan nəyin əleyhinədir?***

- Görünür, bunun müəyyən təsiri olacaq. Baxmayaraq ki, Ermənistanla Rusiya arasındakı münasibətlərin təfərrüatlarını bilmirəm. Bütün bunlar pərdə arxasındadır.

***- Sizcə, Rusiya-Ermənistan münasibətləri əvvəlki etimad səviyyəsində qalıbmı?***

- Məncə, Paşinyanın hakimiyyətə gəlməsi ilə kifayət qədər soyuma baş verib.

***- Və qısaca Rusiya-Ukrayna münaqişəsi haqqında. Döyüş nə qədər davam edə bilər?***

- İndi bu müharibənin sonu görünmür, düşünürəm ki, o, uzun müddət davam edə bilər.

***- Belə bir fikir var ki, ABŞ "Köhnə Dünya"nın özündən asılılığını artırmaq üçün Avropada yeni müharibəyə başlaya bilər. Nə fikirləşirsiniz?***

- Avropanın ABŞ-dan asılılığı, məncə, artıq 100 faizi ötüb və onun tükənmiş imkanlarını hansısa yeni müharibə ilə bitirmək absurd olardı. İndiki mərhələdə Avropa özünü ABŞ-ın son vassalına çevirib və bu vəziyyətdən çıxmaq üçün fərdi cəhdlər ona heç bir nəticə vermir.



***- Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayenin Ağ Evdə NATO-nun baş katibi vəzifəsinə namizədliyi niyə irəli sürülüb?***

- İstənilən şəxs bu vəzifəyə təyin oluna bilər, istənilən halda Şimali Atlantika Alyansının ümumi siyasətində heç nə dəyişməyəcək.

**Tərcümə - Elçin Bayramlı**

# “Adın nədir? Məhəmməd!”

## Övladınıza ad verəndə taleyini də verirsiniz

**Astroloqlar deyir ki, adlar yeni doğulan körpəyə verilərkən belə, fərqində olmadan adı qoyan onun gələcəyini yazır. Astrologiyada eynilə rəqəmlərin insanların üzərində təsirinin olması kimi, hərflərin də insanlar üzərində çox böyük təsiri olduğu artıq sübut edilib. Hər kəs adının layiqli daşıyıcısı olur. İstər yaxşı, istərsə də pis mənada. Amma insanların adlarına görə onları mühakimə etmək də doğru deyil. Astroloqlar fikirləşir ki, insanların yaxın ətrafında olan mənfi enerjili adları olanlar insana pis təsir edir. Yəni, ətrafında bədbin adlı birisi varsa bu adın sahibi qədər sənə də pis təsir edə bilər.**

İnsanın adının taleyinə sirayət etməsi inancı Qədim Misir və hind mədəniyyətindən qaynaqlanır. Maraqlı burasıdır ki, Hindistanda hələ də bu ənənəyə sadiq qalırlar. Hazırda bu ölkədə doğulan hər yeni körpə üçün astroloq-kahin-münəccim çağırılır, o müqəddəs kitabların köməyi ilə uşağa ən uğurlu adı seçir. Ad qoyulma mərasimi xüsusi təşkil edilir. Tanrıya səcdə edərək od ətrafında körpəni dolandırır, oda qansız qurbanlar (meyvə-tərəvəz, paxlalılar, ağartı məhsulları) verilir, Tanrıdan onun adının uğurlu olmasını diləyirlər. Çünki ad insan həyatının demək olar ki yol nişanıdır. Qədim Romada isə belə bir deyim vardı: “Nomen est omen”.










Anlamı belədir: “Ad taledir”. Müsəlman adətlərinə görə isə yeni doğulan körpəyə ailə böyüyü ad verir. Ata, ya da baba körpəni qucağına alır və onun qulağına dua oxuyur və 3 dəfə adını təkrarlayır.

### Elə bilirsiniz onlarda hər adı qoymağa icazə var?

Azərbaycanda şəxsiyyəti, şərəf və ləyaqəti alçaldan adlar daşıyan kifayət qədər çox insan var. Vətəndaşlarımız arasında Alabaş, Cinayət, Fəlakət, Traktor, Qarın, Qəmiş, Paçağa kimi adlar daşınyanlar var. Bu ildən bu adların yeni doğulan körpələrə verilməsi qadağandır. Həmçinin bu problem tək bizdə deyil. Belə ki, “Kurtlar Vadisi” serialı çəkilməyə başlayandan sonra Türkiyədə valideynlər öz körpələrinə Memati adı vermək fikrinə düşsə də müvafiq qurum buna izin vermədi. Türkiyənin Ali Məhkəməsi hətta bu barədə qadağa qanunu da qəbul etdi. Çünki bu adın farscadan tərcümədə mənası “ölüm” deməkdir.

Bundan əlavə bir müddət öncə Yeni Zelandiyada körpənlərini Lüsifer (İblis) adlandırmaq istəyən valideynlərin tələbini dövlət rədd etmişdi. Bu ölkədə adla bağlı qadağa olmasa da valideynin öz övladına bu adı verməsinə Yeni Zellandiya hökuməti bərk əsəbləşmişdi. Bu hadisədən sonra hökumət adlar barədə qərar hazırladı və ötən il ərzində valideynlərin körpələrinə vermək istədikləri yüzlərlə absurd ad rədd edildi. İndi bu ölkədə uşaqlara Baron, Yepiskop, Hersoq, General, Hakim, Kral, Cəngavər və Cənab adlarının verilməsi də qadağandır.

Pakistanda isə son illər yenidoğulmuşlara Məhəmməd adının verilməsi qadağan edilib. Buna səbəb, bu adın Pakistanda çox yayılması və hər hansı cinayət hadisəsi baş verdikdə suçlunu yaxalama zamanı böyük çaşqınlıq yaratmasıdır. Azərbaycanda da müvafiq komissiya bir çox adının uşaqlara verilməsini qadağan edib. Bu qadağanın qoyulmasına səbəb valideynlərin uşaqlarına əcaib adlar seçməsidir. Ölkəmizdə qəribə adlı kifayət qədər çox adam yaşayır. Təmir, Zimkan, Dövlətqar, Nəci, Ququş, Alabas, Aktiv, Duran, Qədeş, Hüseynşir, İbniş,Qutabə, Beytul, Rəhmət, Tola, Traktor, Oktyabr, Sovet, Faiz,Variş, Aydabala, Paçağa, Qarın, İnqraz, Şapələk, Təyyarə və bu kimi daha nə qədər adlar da bir zamanlar valideynlərin öz övladlarına verdikləri adlardandır.




### Həm milli ad seçin, həm də mənası gözəl

Bir neçə ay öncənin söhbətidir, məktəbdən qızımı götürməyə getmişdim. Həyətdə zəngin çalınmağını gözləyirdik. Zəng vuruldu, uşaqlar hay-küylə həyətə axışdı. Hərə öz valideynini axtarır. Yaxınımdan bir səs eşitdim: “Gülçiçək, Gülçiçək, buradayam gəl”. Anası idi, qızını götürməyə gəlmişdi. Adı eşidən bütün valideynlər çevrilib baxdı, ad üzümüzdə təbəssüm yaratdı. Axı daha qoyulmur belə adlar.

Doğrusu, uşaqlara həm milli köklü, həm də müasir ad seçməyin tərəfdarıyam. Həmçinin mənası gözəl, bütün dillərdə səslənməsi estetik, virtual platformada istifadəsi rahat olmalıdır. O səbəbdən uşaqlara ad seçəndə tərkibində ə, ü, ğ, x, ö, ş kimi hərflər olan adlar olmamasına diqqət etmək lazımdır ki, virtual platformada yazıldıqda dəyişikliyə uğramasın. Məsələn, Lalə adını virtual məkanda ya Lala, ya da Lalə olaraq yazmalı oluruq, amma Sevda adını olduğu kimi yazırıq. Bu hərfləri ona görə deyirəm ki, onlar olanda ad başqa dillərdə başqa cür tələffüz edilir. Məsələn Əli adını başqa dildə tələffüz edəndə Ə hərfi A ilə əvəzlənir, amma tutaq ki Azad adı dəyişmir. Çox görürəm, uşağına Məhəmməd adı verib onu Maqa, Mika çağıranları. Adı bəyənərək, sevərək qoymaq lazımdır uşağa, nə uşaq, nə valideyn narahat olmamalıdır o addan.

Ölkəmizin adqoyma mədəniyyətində təkrarlanan ad çoxdur, bir sinifdə 3 Mədinə, 4 Məhəmməd, 2 Hüseyn, 5 Zəhra olur. Kim olduğu anlaşılsın deyə ayama qoşulur uşaqlara – eynəkli Məhəmməd-qara Məhəmməd, balaca Zəhra-uzun Zəhra, arıq Hüseyn, kök Hüseyn. Əslində ad alternativimiz çoxdur, amma var olan adları bəyənməyən olanda da yaradıcılığı olan özü yeni ad yarada bilər, milli köklü və gözəl mənası olan. Bütün hallarda uşaqlara gözəl ad verin ki, utanmasın adından.

### Adını sevməyən xoşbəxt olmur

Bir qız tanıyırdım, Balabacı qoymuşdular adını, nə məktəbdə, nə yaxın çevrəsində heç kimlə ünsiyyət qurmurdu qız, yeni tanışlıqlardan qaçırdı həmişə. Valideynınə yalvarırdı adını dəyişsinlər deyə, əhəmiyyət vermirdilər. 18 yaşı olan kimi dəyişib Nazlı etdi. Anası öz nənəsinin adını vermişdi, dəyişməyə icazə vermirdi, dəyişəndə də ”haqqım haramın olsun” demişdi övladına.

İllər əvvəl Salyanda dərmandan zəhərlənib ölən qız vardı, adı Gülmira. Onun adı özündən əvvəl doğulmuş iki bacısına da verilib. Hər iki Gülmira uşaq ikən ölüb - biri su quyusuna düşüb ölüb, onun ölümündən sonra doğulan qıza da Gülmira adı verilib, o da yanğında ölüb. Ailə ölən qızlardan sonra doğulan 3-cü qız övladlarına da Gülmira adını verib, o qız da dərmandan zəhərlənib öldü. Ad taledir deməli.

Tanıdığım bir ailənin oğul balasının adını Güloğlan qoyublar. Baba öz adını verib uşağa, anası uşağın adını qətiyyən tələffüz etmir, “ürəyim”, “balam” kimi əzizləyici sözlərlə çağırır. Adqoyma haqqında danışanda ananın gözləri dolur, kövrəlir. Ona öz övladına ad qoymaq haqqını tanımayıblar, bir dəfə qəhərlənərək “balamın adını Cavidan” qoymaq istəyirdim, babası icazə vermədi ki, öz adımı qoyacam”

### Ad ananın haqqıdır

Doğuş bir qadının verdiyi ən böyük imtahandır, biz o imtahandan dəfələrlə keçirik. Balamıza ad qoymaq ən birinci bizim haqqımızdır. Uşağın 9 ay ana bətnində zülmünü biz çəkirik, doğuş ağrısını çəkirik, qazı var, qulaq ağrısı, diş ağrısı - hamısını balamızla birgə keçiririk. O bir dəfə ağrıdan qışqıranda biz min dəfə ”can bala, anan ölsün, ağrın mənə gəlsin” deyirik. Gecələri dirigözlü sabah edirik, qucağımızda uşaq evdə o yanbu yana yol metrələyirik.

Bunu bizimlə birlikdə kim edir? Ata, nənə-baba şirin yuxuda olanda biz mürgülü-mürgülü doğan günəşi salamlayırıq. Ad bizim haqqımızdır əziz babalar, əziz nənələr. Yalnız bizim razılığımız olandan sonra bizim uşağımıza ad qoyula bilər - əgər seçilən adı bəyənsək. Nənəni-babanın hörməti, xətri əzizdir, amma ad valideynin haqqıdır. Güloğlan, Baloğlan, Atamoğlan baba, elə baba ol ki, qoy gəlinin, oğlun, qızın, kürəkənin özü təklif eləsin sənin adını qoymağı. Zorla gözəllik olmaz.

***Lalə Mehral***

# “Arzularımız, hədəflərimiz davamlı, onların həyata keçirilməsinə inamımız böyükdür”

## SİA "İki sahil" qəzetinin baş redaktoru, Əməkdar jurnalist, siyasi elmlər doktoru Vüqar Rəhimzadənin müsahibəsini təqdim edir:

***- Vüqar müəllim, iyulun 10-da çoxsaylı mətbu orqanlar arasında öz dəst-xətti ilə seçilən, geniş oxucu auditoriyasına malik "İki sahil" qəzetinin 32 yaşı tamam olur. Təbii ki, gələcəyə dünənimizə baxış əsasında addımlayan zaman hər günün hesabatını verir və bundan yaranan hisslərin işığında yeni hədəfləri müəyyənləşdiririk. Öncə "İki sahil" qəzetinin fəaliyyətə başladığı dövrə qısa nəzər salaq…***

- 32 il zaman baxımından böyük olmasa da, qəzetimizin fəaliyyətə başladığı dövrlə bu günü müqayisə etdikdə bu yolun nə qədər zəngin olduğunu görür və bundan böyük qürur hissi keçiririk. Bugünkü Azərbaycanı 1991-ci ilin iyulundakı, yəni hələ müstəqilliyini bərpa etməyən Azərbaycan ilə müqayisə etmək qeyri-mümkündür. Bu gün Azərbaycan dahi şəxsiyyət Heydər Əliyevin yaratdığı möhkəm təməl üzərində uğurla inkişaf edir, zəfər dolu addımları ilə dünyaya səs salır, 30 il ermənilərin işğalı altında olan ərazilərimiz bu gün azaddır və bərpa-quruculuq dövrünü yaşayır. Azərbaycanın demokratiya təcrübəsi də dünyaya nümunədir. Ölkədə demokratik təsisatların inkişaf etdirilməsi üçün bütün zəruru şərait mövcuddur. Demokratik prinsiplərin yüksək səviyyədə qorunduğu ölkəmizdə mətbuatın inkişafı prioritet vəzifələr sırasındadır. Azərbaycan MDB məkanında mətbu orqanların say tərkibinə görə ön yerdədir. Ölkəmizdə 5 mindən artıq mətbu orqan qeydiyatdan keçib. Bu çoxluq arasında özünəməxsus yer tutmaq, oxucu məhəbbətini qoruyub saxlamaq, auditoriyanı genişləndirmək hər bir mətbu orqanın nail olmağa çalışdığı böyük hədəfdir.

Təbii ki, bugünümüzə qısa baxışın əsasında oxucularımızda "İki sahil"in nəşrə başladığı yarandığı dövrün çətinliyi barədə aydın təsəvvür yaratmaq dayanır. Qəzetimizin qarşıya qoyduğu hədəflər biri-birini əvəzləsə də, tutduğumuz yolun, əqidəmizin dəyişməzliyi, Azərbaycan dövlətinin və dövlətçiliyinin qorunmasına davamlı töhfələrimiz çoxsaylı mətbu orqanlar arasında özünəməxsus yer tutmağımız üçün böyük stimul oldu.

Qeyd etdiyimiz kimi, 1991-ci ilin iyulunda "İki sahil" qəzeti yarananda Azərbaycan hələ dövlət müstəqilliyini bərpa etməmişdi. Həmin illərdə müstəqil mətbuatın yaranmasından, fəaliyyətindən danışmaq qeyri-mümkün idi. Ümumiyyətlə, belə bir addım atmaq böyük cəsarət tələb edirdi. "İki sahil" qəzetini böyük çətinliklə, maneələri dəf edərək yaratdıq. Əbəs yerə deyilmir ki, məqsəd gələcək uğurların başlanğıcıdır. Qəzetimiz o gündən indiyədək fəaliyyətini uğurla davam etdirir və artıq sizin də qeyd etdiyiniz kimi 32 yaşını qeyd edir. "İki sahil" "Vahid Azərbaycan uğrunda!" amalı ilə yola çıxdı. Adı ilə tutduğu yolu, məqsəd və məramını açıqlayan "İki sahil" ilk sayından ölkədə baş verən ictimai-siyasi proseslərə biganə qalmadı, reallıqların təbliğində mühüm rol oynadı. Ötən 32 ildə cəmiyyətin hər bir üzvünün tribunasına çevrilən "İki sahil" azad sözün inkişafının nümunəsi oldu.

Qəzetin yaranmasından qısa vaxt keçdikdən sonra Azərbaycan dövləti müstəqilliyini yenidən bərpa etdi. Müstəqilliyimizin bərpasının ilk illərində ölkəmizdə hakimiyyətsizliyin mövcudluğu, həmin dövrün iqtidarının səriştəsizliyi, idarəçilik qabiliyyətinin yoxluğu, idarəetmədə şəxsi ambisiyaların dövlət maraqlarını üstələməsi ölkəmizin müstəqilliyini, Azərbaycanın bir dövlət olaraq varlığını sual altında qoymuşdu. Ölkədə xaos, anarxiya, hərc-mərclik, özbaşınalıqlar baş alıb gedirdi. İctimai-siyasi, iqtisadi gərginlik bütün sahələr kimi, mətbuatdan da yan keçməmişdi. Jurnalistlərin döyülməsi, təqiblərə məruz qalması, redaksiyalara təzyiqlər və sair kimi addımlar demokratiyanın inkişafından danışmağın mümkünsüzlüyünün təsdiqi idi. Demokratiyanın boğulduğu bir dövrdə "İki sahil"in çə-



tin də olsa fəaliyyətini davam etdirməsi, mövcud reallıqları ölkə ictimaiyyətinə çatdırmaq üçün cəmiyyətin güzgüsü missiyasını uğurla yerinə yetirməsi oxucu məhəbbətini qazanmasında öz sözünü dedi.

Təbii ki, tutduğu yola, əqidəyə sadiqlik hər bir mətbu orqanın uğurlarının açarıdır. Gündəlik maraqlı yazılarla oxucuların görüşünə gəlmək, mövzu rəngarəngliyini qorumaq hər bir mətbu nəşrdən böyük məsuliyyət, axtarış tələb etdiyi kimi, eyni zamanda, bu şərəf məsələsidir. Bir ildə qəzetin işıq üzü görən saylarını 32 il üçün hesablasaq, yaranan rəqəmin sadəcə bir statistika olduğunu deyə bilmərik. Qəzetin hər bir sayı onu səbirsizliklə gözləyən oxucusunun informasiya ehtiyacını ödəməklə yanaşı, bu mərhələnin yaşanmasına qədər kollektivin hər bir üzvünün nə qədər böyük fədakarlıq göstərdiyini nümayiş etdirir. Bir mühüm məqamı da xüsusi qeyd etmək istərdim ki, nəşrə başladığı dövrün, həmçinin müstəqilliyimizin bərpasının ilk illərinin çətinliklərini yaşayan "İki sahil" bəlkə də o illərdə birdən-birə 10 yaş böyüsə də, 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkədə yaranan yüksək əhval-ruhiyyənin fonunda sanki gəncləşdi, uğurların arxasınca addımlayaraq hər bir sayını daha zəngin formada oxucusuna təqdim etməyə çalışdı. Azərbaycanın günbəgün vüsət alan inkişafından fərəhləndi, daim irəliyə baxmağa can atan müstəqil dövlətimizin qətiyyətindən qürur duydu. Bir daha əmin olduq ki, Azərbaycana bu uğurları qazandıran Ulu Öndər Heydər Əliyevin müdrik siyasətidir. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin Azərbaycanın ən çətin günlərində xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra yeni qurulan Azərbaycan qısa müddətdə Ümummilli Liderimizin təbirincə desək, dünyaya Günəş kimi doğdu. Heydər Əliyev siyasətinin Azərbaycana bütün sahələrdə qazandırdığı uğurlar fonunda gəncləşən, yeniləşən, daha da təkmilləşən "İki sahil" bunu fəaliyyət dairəsini daha da genişləndirilməsi, bu məktəbin yetirmələrinin sayının artması ilə təsdiqlədi. Böyük təcrübəyə, eyni zamanda, gənclərlə yaşlı nəslin vəhdətinin yaradılmasına nail olan "İki sahil" bu tendensiyanı uğurların davamlılığında əsas amillərdən biri kimi öndə saxladı. Bu gün qürurla qeyd edirik ki, 32 illik yolun təcrübəsindən bəhrələnən neçə-neçə əməkdaşlarımız ayrı-ayrı mətbu orqanların, dövlət strukturlarının mətbuat xidmətlərinin rəhbərləri kimi, həmçinin bu və ya digər sahələrdə məsul vəzifələrdə çalışır, qazandıqları təcrübəni tətbiq etmələrindən sonsuz fərəh hissi keçirirlər. Mən qəzetin baş redaktoru kimi, bu məqamı böyük qürur hissi ilə qeyd edirəm.

Bu gün 32 yaşını qeyd edən qəzetin hansı sayına diqqət yetirsəniz, orada daim yeniləşmənin, təkmilləşmənin şahidi olarsınız. Bu, ondan irəli gəlir ki, qəzetimiz yarandığı gündən daim irəli baxdı, qazandığı uğurlarla kifayətlənməyərək axtarışlarda oldu və bu gün də axtarışları uğurla davam etdirir. Eyni zamanda, hər bir yeniliyin tətbiqinə səy göstərir, dolğun informasiyalarla oxucularının görüşünə gəlməkdən qürur hissi keçirir. Hər gün yeniləşən, müasirləşən Azərbaycanın reallıqlarının təbliğində özünəməxsus payı olması üçün üzərinə düşən şərəfli missiyanı layiqincə yerinə yetirməyə çalışır.

Bu uğurlara stimul verən, bütün dövrlər üçün fəaliyyətimizin bələdçisinə çevrilən bu məqamı xüsusi qeyd etmək istərdim. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyev "İki sahil" qəzetinin fəaliyyətini belə dəyərləndirmişdir: "O vaxt "İki sahil" qəzeti yaranmışdı. Mən hesab edirəm ki, bu qəzet də çox iş görmüşdür. Bu qəzet indi də Yeni Azərbaycan Partiyasına xidmət edir. Amma o vaxt bu partiya yox idi, lakin "İki sahil" qəzeti çox cəsarətli məqalələr verirdi. Mən təkcə Naxçıvanı götürmürəm, ədalətsiz hadisələrə qarşı Azərbaycanın ayrı-ayrı vətəndaşlarının, ziyalılarının fikrini dərc etməkdə bu qəzet yaxşı fəaliyyət göstərmişdir, indi də göstərir. Mən bunu da yüksək qiymətləndirirəm."

***- Bu mühüm məqamı da xüsusi vurğulamalıyıq ki, ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı xalqın böyük əksəriyyətinin istəyini özündə ifadə edən 91 nəfər ziyalının Ümummilli Liderə müraciəti də "İki sahil"də dərc olunub….***

- "İki sahil"in fəaliyyətinin əsas istiqaməti Ulu Öndər Heydər Əliyev ideyalarının təbliğidir. "İki sahil"in 32 illik tarixinin mühüm səhifələrindən biri məhz "91-lər"in müraciətinin və Ulu Öndərin bu müraciətə cavabının işıqlandırılması oldu. "91-lər"in üzvü, eyni zamanda, qəzetin rəhbəri kimi bu gün həmin məqamı böyük qürur hissi ilə xatırlayıram. Dövlət başçısı İlham Əliyev hər bir çıxışında Ümummilli Liderin fəaliyyətindən, dövlətimiz, xalqımız qarşısındakı xidmətlərindən bəhs edərkən Yeni Azərbaycan Partiyasının yaradılmasında stimulverici amil olan "91-lər"in müraciətindən xüsusi bəhs edir. Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının Zəfərimizin reallıqları əsasında keçirilən VII qurultayında həmin dövrü, eyni zamanda, "91-lər"i belə dəyərləndirmişdir: "O vaxt cəsarət və milli düşüncə göstərmiş, baxmayaraq ki, repressiyalara məruz qalmış vətənpərvər insanlar - məşhur "91-lər" Ulu Öndərə müraciət ediblər. Bu, böyük cəsarət tələb edirdi. Çünki o vaxt qanun yox idi. Kim nə istəyirdi, onu edirdi. Hüquq-mühafizə orqanları insanları əsassız həbs edirdilər, döyürdülər, canlı efirdə döyürdülər, söyürdülər. Tamamilə anarxiya, xaos, özbaşınalıq hökm sürürdü. Kimi istəyirdilər öldürürdülər, şikəst edirdilər, həbs edirdilər. Bax, bu idi o vaxt mövcud olan mənzərə. Senzuranı tətbiq etmişdir, guya ki, demokratik Xalq Cəbhəsi. Senzura o vaxt onlar tərəfindən tətbiq edilmişdir. O vaxt onlara qarşı bir söz deyəni tutub əzirdilər, döyürdülər, öldürürdülər."

"İki sahil" bütün təzyiqlərə, çətinliklərə, həmin dövrün acı reallıqlarına baxmayaraq sözügedən müraciəti öz səhifələrində dərc etdi və xalqa çatdırdı. Xalqın arzu və istəklərinin təbliğində fəal rol oynayan qəzetimiz bu istəkdən və zamanın tələbindən yaranan Yeni Azərbaycan Partiyasının bütün təşəbbüslərini, qərarlarını, partiyanın həyatında əhəmiyyətli rol oynayan qurultaylarını, şəhər və rayon təşkilatlarının fəaliyyətini, keçirdikləri silsilə tədbirləri, ölkəmizin həyatında əhəmiyyətli rol oynayan seçkilərdə Yeni Azərbaycan Partiyasının fəaliyyətinin bütün məqamlarını geniş şəkildə işıqlandırır, YAP-ın qələbə, ümumxalq, gənclər partiyası kimi nüfuz qazanmasının səbəblərini konkret faktlar əsasında ölkə ictimaiyyətinə çatdırır. "İki sahil", eyni zamanda, Yeni Azərbaycan Partiyasının dünənin, bu günün və gələcəyin partiyası olduğunu, tarixin sınaqlarından şərəflə çıxaraq cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsini, YAP-a xidmət etməyin xalqa, dövlətə xidmət etmək olduğunu əsaslı şəkildə analitik yazılar, partiyanın yarandığı dövrün şahidlərinin vasitəsilə indiki və gələcək nəsillərə çatdırılmasına səy göstərir. Bu çağırış dövlət başçısı, YAP Sədri İlham Əliyevin çıxışlarında da xüsusi qeyd edilir: "Faktiki olaraq 1992-ci ilin noyabr ayı gənc ölkəmizin həyatında yeni bir mərhələyə yol açdı.

Ondan sonra heç bir il keçməmiş - 1993-cü ilin oktyabr ayında Heydər Əliyev xalqın mütləq əksəriyyətinin dəstəyi ilə Prezident vəzifəsinə seçildi və ölkəmizin böhrandan çıxma prosesi artıq başladı. Biz bu tarixi yaxşı bilməliyik. O tarixi yaşamayanlar isə bunu öyrənməlidirlər. Mən demişəm, bizim dərsliklərdə bu tarixlə bağlı geniş məlumat verilməlidir. O tarixin canlı şahidləri öz xatirələrini bölüşməlidirlər ki, bu tarix əbədi yaşasın." Ümummilli Liderin dünənin, bu günün və gələcəyin partiyası kimi dəyərləndirdiyi Yeni Azərbaycan Partiyasının gələcəyinə inamı Prezident İlham Əliyev belə ifadə edir ki, YAP bundan sonra da ölkəmizdə gedən proseslərin mərkəzində olacaq. "Biz birlikdə güclüyük!" çağırışını səsləndirən YAP yeni Proqramında əksini tapan hədəflərin reallığa çevrilməsi istiqamətində bütün səylərini birləşdirir, Ulu Öndərin şah əsəri olan müasir müstəqil Azərbaycanın uğurlarında payının olmasından şərəf duyur. "İki sahil" olaraq bundan sonra da Ümummilli Liderin ideyalarının Azərbaycana qazandırdığı uğurların fəal təbliğatçısı olacağıq.

***- Vüqar müəllim, "İki sahil"in hesabat xarakteri daşıyan ad günündə qəzetin təsisçisinin dəstəyindən bəhs etməmək mümkün deyil. Qürurvericidir ki, Ümummilli Liderin müəllifi olduğu neft strategiyasının uğurlu icrasında, ölkə iqtisadiyyatının dayanıqlı inkişafında öz payı olan və daim yeniləşən, müasirləşən Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti rəhbərlik etdiyiniz qəzetin təsisçisidir. Bu təsisçilik "İki sahil"ə hansı uğurları qazandırır?***

- Qeyd etdiyim kimi, Azərbaycan dövlətinin uğurları qəzetimizin inkişafında, daha böyük ruh yüksəkliyi ilə fəaliyyətində əhəmiyyətli rol oynayır. Hər bir ölkənin inkişafında iqtisadi tərəqqinin rolunu nəzərə alsaq məmnunluq hissi ilə qeyd edə bilərik ki, təsisçimiz olan SOCAR-ın ölkə iqtisadiyyatının inkişafına töhfələri bizi qürurlandırmaqla yanaşı, Şirkətin fəaliyyətinin təbliğində fəal iştirakımızı şərtləndirir. 1994-cü il sentyabrın 20-də tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft sazişinin imzalanması, SOCAR-ın Ulu Öndər Heydər Əliyevin neft strategiyasının uğurlu icrasına töhfələrini verməsi təqdirəlayiqdir.

Bu gün SOCAR dövlətimizin başçısı cənab İlham Əliyevin tapşırıqlarını uğurla yerinə yetirərək dünyanın modern şirkətləri ilə bir sırada dayanır, həyata keçirdiyi investisiya layihələri ilə Azərbaycanın nəinki investisiya cəlb edən, eyni zamanda, investisiya yatıran ölkə imicinə əlavələr edir. Təsadüfi deyildir ki, bu gün SOCAR təkcə ölkə deyil, dünya iqtisadiyyatında böyük təsir gücünə malik olan nəhəng və modern bir quruma çevrilib. Bu, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilən müdrik siyasətin nəticəsidir. Əvvəldə də qeyd etdiyimiz kimi, bu gün SOCAR-ın fəaliyyətini yalnız qəzetimizin təsisçisi kimi deyil, dayanıqlı iqtisadi inkişafımızda əhəmiyyətli rol oynayan şirkət olaraq dəyərləndirir, gördüyü genişmiqyaslı işləri ictimaiyyətə çatdırmağa çalışırıq. Təbii ki, təsisçi olaraq SOCAR-ın qəzetimizin fəaliyyətində öz xüsusi yeri var. "İki sahil"in zamanın, dövrün tələblərinə uyğun yenilənməsində, kollektivimizin zəhmətinin dəyərləndirilməsində bu dəstək inkaredilməzdir.

*- "İki sahil" 32 yaşında özünü necə hiss edir? Təbii ki, burada söhbət kadr potensialının mövcudluğundan gedir. Dövlət başçısı İlham Əliyevin çağırışlarında jurnalist peşəkarlığı xüsusi qeyd edilir…*

- Bu gün "İki sahil" böyük bir ailədir. Amma 1991-ci ildə kiçik bir ailə şəklində fəaliyyətə başlamışdıq. Hər dövrün öz tələbi olur. İllər keçdikcə bu tərkibin genişləndirilməsinə, peşəkarlığın daha da artırılmasına böyük zərurət yaranır. Artıq müasir texnologiyaların tətbiqi və inkişaf etdirilməsi zamanında yaşayırıq. Yeni texnologiyaların tətbiqi kadr potensialını zəruri tələbə çevirir. Jurnalist mətbuatın qarşısında dayanan prinsiplərə riayət etməklə yanaşı, yeniliyi, təkmilləşməni özünün gündəlik fəaliyyətində də təsdiqləməlidir. "İki sahil"in onlayn rejimdə fəaliyyət göstərən saytı, internet televiziyası fəaliyyət göstərir. İnternet televiziyasının, saytın inkişafında, qəzetin elektron versiyasının təkmilləşməsində, yeniləşməsində kadr potensialımızın mövcudluğu özünü aydın şəkildə nümayiş etdirir. Qəzetimizdə gənclərə böyük diqqət və qayğı göstərilir. Onların yenilikçi təşəbbüsləri, ideyaları, hadisələrə yanaşma metod və formaları qəzetimizdə informasiya bolluğunun təmin edilməsində öz sözünü deyir.

Ümumiləşdirilmiş şəkildə qeyd etsək, "İki sahil" hər bir yaşında gənclik dövrünü yaşayır. Buna səbəb kollektivimizin daim yenilik axtrışında olmasıdır. Dövlətin hər bir diqqət və qayğısını öz üzərində hiss edən "İki sahil"in əməkdaşları sırasında Prezident İlham Əliyevin Sərəncamı ilə fəxri adlara layiq görülənlər az deyil. Hesab edirəm ki, bu diqqət ümumilikdə qəzetimizə olan etimaddır. Bu, bir daha təsdiq edir ki, "İki sahil" tutduğu yola, əqidəyə sadiqlik nümayiş etdirərək dövlətçiliyimizin inkişafına töhfələri ilə diqqətdədir. Hər zaman qəzetimizə olan etimadı əməli fəaliyyətimizlə doğrultmağa çalışırıq.

*- 32 illik yolu necə ümumiləşdirmək istərdiniz?*

- 32 il hər bir "İki sahil"çinin həyatında əlamətdar anlarla, günlərlə zəngindir. Qəzetimizin uğurlarında kollektivimizin hər bir üzvünün öz payı vardır. Yaranma günümüzü bir hesabat kimi dəyərləndirsək, keçilən yolun təqdirəlayiq olub-olmadığını təbii ki, bizimlə birgə addımlayan oxucularımız deyə bilər. Redaksiyamıza daxil olan minnətdarlıq məktublarından bu əminliyi özümüzdə yaradırıq ki, onların etimadını, informasiya tələbatlarını lazımı səviyyədə təmin edirik. Bu vəhdət qarşıdakı illərdə daha böyük uğurlarımıza yol açacaq.

*-Vüqar müəllim, təbii ki, ötən 32 ili bir müsahibə çərçivəsində əhatə etməyiniz mümkünsüzdür. Bu gün "İki sahil" olaraq tarixi Zəfərimizin reallıqlarına söykənərək hansı hədəfləri müəyyənləşdirirsiniz?*

- Tarixi Zəfərimizin müjdəçiləri sırasında olmağınız 32 illik fəaliyyətinizin ən böyük uğurudur. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri qəzetimizin hər bir sayında geniş təbliğ edilir. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın böyük Zəfərimizin ilk anlarından azad edilmiş torpaqlarımıza tarixi səfərlərindən yaranan qürur qəzetimizin səhifələrində dərc edilən materiallarda özünün aydın ifadəsini tapır. Artıq ötən ildən tarixi ədalətə söykənərək Qərbi Azərbaycana qayıdacağımızı böyük əminliklə qeyd edirik. Dövlət başçısının tapşırığına uyğun olaraq Qərbi Azərbaycana Qayıdış Konsepsiyası hazırlanıb. Bu mühüm addım özündə bütün məqamları ehtiva edir. Tezliklə "İki sahil"i Qərbi Azərbaycana qayıdışımızın müjdəçiləri arasında görmək istərdik. Arxada qalan hər bir yaş növbəti yaşa böyük ruh yüksəkliyi ilə qədəm qoymağa stimul verir. "İki sahil"çilər 32 yaşın uğurlarına söykənərək növbəti yaşa "Xoş gəldin" deyirlər. Bu bayram günündə kollektivimizə arzum, diləyim budur ki, qələmimiz iti, sözümüz kəsərli, yeni yaşımız mübarək olsun! Qalib Azərbaycanın reallıqları fonunda media sahəsində aparılan islahatların, yeni "Media haqqında" Qanunun icrasına öz töhfələrimizi verək! Qalib Azərbaycan hər birimizin qürur mənbəyidir. Azad Qarabağımızın, Şərqi Zəngəzurumuzun dirçəldilməsinə yönələn hər bir addımın fəal təbliğatçısı olaq! Arzularımız, hədəflərimiz davamlı, onların həyata keçirilməsinə inamımız böyükdür. Bayramımız mübarək!

# "Əvvəlcə Türkiyənin Avropa İttifaqına yolunu açaq, ondan sonra..."

**Prezident Rəcəb Tayyib Ərdoğan İsveçin NATO-ya üzvlüyü ilə bağlı "Əvvəlcə gəlin, Avropa İttifaqında Türkiyənin yolunu açaq, ondan sonra Finlandiya kimi İsveçin də işini həll edək" deyib.**



SİA-nın əldə etdiyi məlumata görə, Litvaya səfərindən əvvəl İstanbul Atatürk Hava Limanında mətbuat nümayəndələri qarşısında çıxışında R.T.Ərdoğan deyib: "Sammit çərçivəsində bir sıra dövlət və hökumət başçıları ilə ikitərəfli görüşlərimiz olacaq. Hazırda NATO-ya üzv olan ölkələrin demək olar ki, hamısı Avropa İttifaqının üzvüdür. Mən buradan Türkiyəni 50 ildən çoxdur Aİ qapısında gözlədən ölkələrə səslənirəm, Vilnüsdə də deyəcəyəm: əvvəlcə gəlin, Avropa İttifaqında Türkiyənin yolunu açın, sonra Finlandiya kimi biz də İsveçin işini həll edək. Dünən axşam bu məsələ ilə bağlı ABŞ prezidenti Co Baydenə də eyni sözləri dedim.

İsveç və Finlandiyanın NATO-ya üzvlük müraciətləri ilə bağlı 2022-ci ildə Madriddə imzalanan üçtərəfli sazişlə əsasən yol xəritəsi hazırlanıb. Finlandiya aprel ayında üzərinə götürdüyü öhdəliklərə uyğun hərəkət edərək alyansa rəsmən üzv oldu. İsveçlə bağlı proses davam edir. Əlaqədar qurumlarımızın şəffaf və xoş niyyətli yanaşması ilə isveçli həmkarlarla görüşlər sürür.

İsveçin NATO-ya üzvlük prosesinin gedişi üçtərəfli sazişdə qeyd olunan məsələlərin yerinə yetirilməsindən asılıdır. Vilnüsdə NATO zirvə toplantısında Türkiyəyə qarşı sanksiyalar və məhdudiyyətlər tətbiq edən müttəfiqlərimizi bu səhvdən tez bir zamanda dönməyə çağırışımızı təkrarlayacağam".

# "İki sahil" qəzetinin 32 yaşı tamam olur

Çoxsaylı mətbuat orqanları arasında özünəməxsus yer tutan, dövlətçiliyimizin inkişafına davamlı töhfələr verən, oxucu auditoriyasını günbəgün genişləndirən "İki sahil" qəzetinin ilk nömrəsinin işıq üzü gördüyü 1991-ci il 10 iyul tarixindən 32 il ötür.

"İki sahil" Azərbaycanın ən çətin dövründə həyata vəsiqə aldı. O dövrün reallıqlarını ictimaiyyətə çatdırmaqdan çəkinmədi, öz ideallarına sadiq qalaraq sınaqlardan şərəflə çıxdı. O dövrdə "İki sahil" öz səhifələrində reallıqları olduğu kimi oxuculara çatdıraraq, Azərbaycanın xilaskarının Ümummilli Lider Heydər Əliyev olduğunu qətiyyətlə bəyan edirdi. Azərbaycan xalqının böyük əksəriyyətinin ifadəsi olan 91 nəfər ziyalının dahi şəxsiyyət Heydər Əliyevə "Azərbaycan Sizin sözünüzü gözləyir" müraciəti qəzetin səhifələrində yer aldı. "İki sahil" bütün çətinliklərə, təzyiqlərə rəğmən qarşısına qoyduğu məqsədə doğru inamla addımladı, cəmiyytin güzgüsü missiyasını şərəflə yerinə yetirdi.




Ümummilli Lider YAP-ın yaradılmasının ildönümü münasibətilə keçirilən ümumrespublika müşavirəsində "İki sahil" qəzetinin rolunu yüksək dəyərləndirib: "O vaxt "İki sahil" qəzeti yaranmışdı. Mən hesab edirəm ki, bu qəzet də çox iş görmüşdür. Bu qəzet indi də Yeni Azərbaycan Partiyasına xidmət edir. Amma o vaxt bu partiya yox idi, lakin "İki sahil" qəzeti çox cəsarətli məqalələr verirdi. Mən təkcə Naxçıvanı götürmürəm, ədalətsiz hadisələrə qarşı Azərbaycanın ayrı-ayrı vətəndaşlarının, ziyalılarının fikrini dərc etməkdə bu qəzet yaxşı fəaliyyət göstərmişdir, indi də göstərir. Mən bunu da yüksək qiymətləndirirəm."

1993-cü ildə dahi şəxsiyyət Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkəmizin həyatında baş verən köklü islahatlar mətbuatdan da yan keçmədi. Dövlətin azad mətbuatın inkişafı istiqamətində atdığı addımlar "İki sahil"in fəaliyyətinin daha da genişləndirməsində öz sözünü dedi.

32 il bir mətbu orqan üçün həm təqdimat, həm də zəngin yol keçərək sabahı üçün möhkəm baza formalaşdırması baxımından böyük rəqəmdir. "İki sahil" yarandığı dövrün çətinliklərinə uğurla dəf edərək cəmiyyətin hər bir üzvünün arzu və istəklərini ifadə edən bir tribunaya çevrilib. Azad sözə, fikrə dəyər qəzetin fəaliyyətində özünün aydın ifadəsini tapır.

Qəzetin fəaliyyətini fərqləndirən mühüm xüsusiyyətlərdən biri Azərbaycanın dövlət quruculuğu prosesinin bütün mərhələlərini öz prinsiplərinə müvafiq əks etdirməsidir. Müasir dövlət quruculuğu prosesləri, Prezident cənab İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasət, Azərbaycan mədəniyyətinin, incəsənətinin, təhsilinin inkişaf mərhələləri qəzetdə dolğun şəkildə əks etdirilir. Ölkə rəhbəri möhtərəm İlham Əliyevin həyata keçirdiyi uğurlu inkişaf strategiyası, Heydər Əliyev Fondunun təhsil, mədəniyyət və s. sahələrdə reallaşdırdığı layihələr qəzetin səhifələrində xüsusi yer tutur.

Qəzetin "ikisahil.az" internet saytı uğurla fəaliyyət göstərir. Dövrün, zamanın tələblərinə uyğun olaraq yenilənən internet səhifəsində günün aktual məsələlərinin təhlili, ölkə daxilində və onun hüdudlarından kənarda baş verən hadisələr operativ şəkildə oxuculara çatdırılır. "İki sahil" İnternet Televiziyası da uğurla fəaliyyət göstərir. Günün aktual məsələləri ilə bağlı, ictimai-siyasi, iqtisadi və digər mövzularda müxtəlif sahələri əhatə edən verilişlərin yayımlandığı "İki sahil" internet televiziyası da izləyicilərin böyük rəğbətini qazanıb.

"İki sahil" ölkə iqtisadiyyatının inkişafında aparıcı rol oynayan, Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının həyata keçirilməsinə davamlı töhfələr verən SOCAR-ın təsisçiliyi ilə fəaliyyət göstərir. SOCAR Prezident İlham Əliyevin tapşırıqlarını uğurla yerinə yetirərək bu gün dünyanın ən modern şirkətləri ilə bir sırada dayanır. Qəzet SOCAR-ın uğurlu fəaliyyətini təsisçi olmaqla yanaşı həm də dayanıqlı iqtisadi inkişafımızda böyük rol oynayan şirkət olaraq dəyərləndirir, gördüyü genişmiqyaslı işləri ictimaiyyətə çatdırmaqdan qürur duyur.

"İki sahil" gənc jurnalistlər üçün böyük məktəbdir. Məsuliyyət peşəkarlığın açarıdır. Mətbuatın əsas prinsiplərini fəaliyyətinin önündə saxlayan "İki sahilçi"lər 32 ilin işığında növbəti illərə doğru uğurla addımlayır. Qəzetin ötən 32 ildə keçdiyi zəngin və şərəfli tarix böyük təcrübə, gələcək üçün möhkəm təməldir.

# “Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı” proqramı təsis edilib



Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2017-ci il tarixli, 3457 nömrəli Sərəncamı ilə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin vətəndaşları, eləcə də Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 2018-ci il tarixli, 3567 nömrəli Sərəncamı ilə Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşları üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrində tədris dilinə uyğun hazırlıq kurslarında və ali təhsilin bakalavriat, magistratura, doktorantura, tibb təhsili üzrə əsas təhsil və rezidentura səviyyələrində təhsil qrantı proqramları təsis edilib. İslam Əməkdaşlıq Təşkilatına və Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarının Azərbaycan Respublikasının ali təhsil müəssisələrində təhsili üçün Azərbaycan Respublikası Prezidentinin təsis etdiyi qrant proqramları Azərbaycanın beynəlxalq nüfuzunun artmasına, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın möhkəmlənməsinə, dost və tərəfdaş ölkələrdə insan resurslarının inkişafına nəzərəçarpan töhfələr vermişdir.

Bu günlərdə isə Azərbaycan Prezidenti İlham Əliyev ”Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı” proqramının təsis edilməsi haqqında Sərəncam imzalayıb.

Müasir Azərbaycan dövlətinin qurucusu, dahi siyasi və dövlət xadimi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin beynəlxalq münasibətlər sistemində Azərbaycan Respublikasının layiqli mövqe qazanmasında müstəsna rolunu nəzərə alaraq, ali təhsil müəssisələrində əcnəbilərin təhsilinə dəstək vermək məqsədilə ”Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı” proqramı təsis ediləcəkdir. Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin tədris dilinə uyğun hazırlıq kurslarında, bakalavriat (əsas (baza ali) tibb təhsili), magistratura (rezidentura), doktorantura səviyyələrində təhsili üçün nəzərdə tutulub. Bu, İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələr, Qoşulmama Hərəkatına üzv ölkələr, İnkişaf etməkdə olan Kiçik Ada Dövlətləri qrupuna daxil olan ölkələr, xalqımızla etnik, tarixi və mədəni bağlara malik xalqların və milli azlıqların yaşadığı ölkələrin vətəndaşlarının təhsili üçün ”Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı” proqramı təsis edilir. Təsis edilmiş təhsil qrantı 2024-2025-ci tədris ilindən başlayaraq hər il 100 təhsil qrantı olmaqla 5 (beş) il müddətində verilir. Azərbaycan Respublikasının hesabına ödənilən təhsil haqqı, viza, qeydiyyat, yataqxana və ya mənzil kirayəsi, gündəlik qidalanma, tədris ədəbiyyatı ilə təminat, nəqliyyatdan (taksi xidmətindən başqa) istifadə, kommunal xidmətlər, tibbi yardım və təhsil qrantı alacaq şəxslərin ildə bir dəfə ölkələrinə gediş-gəliş xərclərini əhatə edir.



Azərbaycan Respublikasının Nazirlər Kabineti ”Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı”nın verilməsi qaydasını və həmin təhsil qrantının məbləğini iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat verəcək. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birlikdə, hər il may ayının 1-dən gec olmayaraq, bu Sərəncamın 1.1-1.4-cü bəndləri üzrə təhsil qrantının verilməsi üçün kvotaları (o cümlədən ölkələr üzrə kvotaları), namizədlərin seçim meyarlarını və bunların əsasında təhsil qrantı alacaq şəxslərin siyahısını müəyyənləşdirəcəkdir. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi bu Sərəncamın 4-cü hissəsinə uyğun olaraq müəyyənləşdirilmiş siyahı üzrə əcnəbilərin təhsil alacaqları Azərbaycan Respublikasının ali təhsil müəssisələrini müəyyən edəcək və 2024-2025-ci tədris ilindən başlayaraq həmin ali təhsil müəssisələrinə Azərbaycan Respublikasının dövlət büdcəsindən bu Sərəncamın 2.2-ci bəndində nəzərdə tutulan xərclərin ödənilməsini təmin edəcəkdir.

Məlumdur ki, Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərəncamları ilə təsis edilmiş təhsil qrantı proqramları çərçivəsində yerli təhsil müəssisələrində əcnəbi tələbələr təhsil alır. Belə ki, 2018-2022-ci illər çərçivəsində İslam Əməkdaşlıq Təşkilatına və Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşları üçün ayrılmış 200-yə yaxın təqaüd proqramı çərçivəsində yerli təhsil müəssisələrində əcnəbi tələbələr bakalavriat, baza ali tibb təhsili, magistratura, rezidentura, doktorantura səviyyələri üzrə təhsil almaq hüququ qazanmışdılar. Təhsil qrantı dövlət hesabına ödənilən təhsil haqqı, viza, qeydiyyat, aylıq təqaüd, tibbi yardım və beynəlxalq nəqliyyat xərclərini əhatə etmiş oldu. 2022-2023-cü tədris ilində isə yerli ali təhsil müəssisələrində 40 tələbə təhsil qrantı çərçivəsində təhsil almaq imkanı əldə etmişdi.

Əlbəttə ki, təhsil qrantı proqramlarının uğurlu təcrübəsi əsasında xarici ölkə vətəndaşlarına təhsil qrantının verilməsi istiqamətində növbəti mərhələyə keçid beynəlxalq sülh və əməkdaşlığın möhkəmləndirilməsi ilə yanaşı, Azərbaycan ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artmasına, beynəlmiləlləşməsinə və ali təhsil müəssisələrində təhsil alan əcnəbilərin coğrafi müxtəlifliyinin genişlənməsinə də müsbət təsir edəcəkdir.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Azərbaycanda iqtisadi inkişaf və sabitlik: demoqrafik inkişaf



Dövlət başçısının sosialyönümlü istiqamətində apardığı uğurlu siyasət nəticəsində əhalinin sosial rifah halı yaxşılaşıb, işsizliyin və yoxsulluğun aradan qaldırılması istiqamətində mühüm addımlar atılıb. Bu siyasətin mərkəzində isə Azərbaycan vətəndaşı dayanır. Azərbaycanda son illər baş vermiş həm siyasi, həm də sosial-iqtisadi dəyişikliklər demoqrafik inkişafa ciddi təsirini göstərib. Ölkəmizdə ölüm səviyyəsinin azaldılması, əhalinin sağlamlığının və həyatının yaxşılaşdırılması hesabına uzunömürlülük, nikah və boşanma proseslərinin bütünlükdə cəmiyyətin və ayrılıqda hər bir ailənin mənafeyinə uyğun tərzdə nizamlanması, ictimai tərəqqinin həm yaxın, həm də uzaq gələcəyə perspektivləri nəzərə alınmaqla miqrasiya proseslərinin tənzimlənməsi və digər amillər ölkəmizdə demoqrafiyanın inkişafına təsirsiz ötüşməyib. Bunun real təzahürü ölkə əhalisinin sabit artım tempinin davam etməsində aydın şəkildə özünü göstərir. Əhalisinin sayı hər il sabit şəkildə artaraq 10 milyonu ötən ölkəmizdə dayanıqlı sosial-iqtisadi tərəqqi, sosial siyasət davamlı xarakter almaqla demoqrafik inkişafa təkan verir. Azərbaycanda MDB məkanında, ilk dəfə olaraq, elmi əsaslarla işlənilib, demoqrafiya sahəsində dövlət strategiyasını müəyyən edən "Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası" təsdiq edilib.

Bütün dünya ölkələri kimi Azərbaycan da 11 iyul Ümumdünya Əhali Gününü qeyd edilir. Bu əlamətdar tarixi 1989-cu ildə BMT-nin əhali problemlərinin həllinə yardım göstərən ən iri beynəlxalq təşkilatı olan Əhali Fondu təsis edib. Bu günün qeyd olunmasında məqsəd ailə planlaşdırılmasının əhəmiyyəti, gender bərabərliyi, yoxsulluq, qadın sağlamlığı və insan hüquqları kimi dünya əhalisi ilə bağlı müxtəlif məsələlər barədə məlumatlılığı artırmaq, insanların problemlərinə xüsusi diqqət yetirmək və ümumi inkişafa nail olmaqdır.

Məlumdur ki, dünya əhalisinin demoqrafiyası tarixin müxtəlif dönəmlərində sabit olmamış, hər zaman dəyişikliyə məruz qalmışdır. Statistik göstəricilərə nəzər salsaq görərik ki, 1900-da dünya əhalisi 1.6 mlrd., 1960-da 3 mlrd., 2000-də 6 mlrd. olmuşdur. Demoqrafların hesablamalarına görə dünya əhalisi bu sürətlə artmağa davam etsə 2040-də dünyamızda 10 mlrd. insan yaşayacaq. 2100-cü ilə qədər isə 16 milyarda çatacaq və bu da əhali sıxlığının bəzi ölkələrdə yoxsulluq və müharibələrə səbəb olacağı ehtimalı yaratmış olur. Dünyada ən sürətli təbii artım 1950-1970 illərində müşahidə olunmuşdur. Ən çox təbii artım isə 1963-cü ildə qeydə alınmışdır. Bu zaman dünyanın təbii artımı 2,2% təşkil edib. Əhalisinin sayına görə, ilk üç yerdə Çin, Hindistan və ABŞ qərarlaşıb.





## ƏHALİNİN ARTIMI QARŞISINDA GÖRÜLƏN TƏDBİRLƏR

Əlbəttə ki, müasir dövrün çağırışlarına cavab verən, sosial-iqtisadi inkişafı ilə diqqətdə olan Azərbaycan bütün beynəlxalq əhəmiyyət kəsb edən günlər kimi, Dünya Əhali Gününü də 2005-ci ildən etibarən qeyd edir. Son əsrlərdə Azərbaycandakı demoqrafik inkişafa nəzər salsaq görərik ki, 1897-ci ildə Azərbaycanda əhalinin sayı 1 milyon 807 nəfər, Birinci Dünya müharibəsindən əvvəl isə 2 milyon 339 nəfər olub. Dünya müharibəsi, azərbaycanlılara qarşı soyqırımı siyasəti, xarici müdaxilələr ölkə əhalisinin sayına mənfi təsir göstərib və 1920-ci ildə əhalinin sayı 1 milyon 952 nəfərə düşüb. 1980-ci ildə isə bu say 6 milyonu ötüb. 2000-ci ildə isə 8 milyondan artıq əhali qeydə alınıb.

Xatırlatmaq yerinə düşər ki, Azərbaycanda MDB məkanında, ilk dəfə olaraq, elmi əsaslarla işlənilib, demoqrafiya sahəsində dövlət strategiyasını müəyyən edən "Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası" təsdiq edilib. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsaslanmaqla, ölkəmizdə davamlı demoqrafik inkişafı təmin edilməsi üçün əhali sakinliyi və demoqrafik inkişaf sahəsində yeni Dövlət Proqramı layihəsi hazırlanaraq həyata keçirilib. Bütün bu və ya digər amillər demoqrafik inkişafa ciddi təsirini göstərib. Azərbaycanda hər il doğulanların sayı artır, misal üçün, 2018-ci ildə ölkədə 139 min doğulmuş körpə qeydə alınıb. Ölkəmizdə doğulanların sayı ölənlərin sayını 2-2,5 dəfə üstələyir. 2020-ci ilin 1 dekabr vəziyyətinə görə Azərbaycan əhalisinin sayı 10 123 004 nəfər təşkil edib. Əhalinin sayı 2019-cu illə müqayisədə 0,6% artıb. 2021-ci il ərzində Azərbaycanda yeni doğulan körpələrin sayı (yanvar-noyabr ayları ərzində) 101775 nəfər olub. Bu göstərici əhalinin hər 1000 nəfərinə 11,1 təşkil edib. Bu rəqəmlər bir daha göstərir ki, əhalinin sayında artımlar müşahidə edilməkdədir. Əhalinin 53,0 faizini şəhər, 47,0 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir. 2022-ci ildə əhalinin sayı 10063,3 nəfər, 2023-cü ildə isə (ilin əvvəlinə) 10127,1 təşkil edir. Əhalinin artımı qarşısında genişmiqyaslı tədbirlər görülür, yeni uşaq bağçaları və məktəblər, müalicə müəssisələri və idman kompleksləri istifadəyə verilir.

## AZƏRBAYCANDA BƏRQƏRAR OLAN MÜSBƏT DEMOQRAFİK ŞƏRAİT

Bununla yanaşı, dövlət başçısının 2018-ci il 30 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" da mövcud demoqrafik meyillərə və inkişaf perspektivlərinə, ölkənin müəyyən olunmuş iqtisadi prioritetlərinə əsaslanmaqla, səmərəli məşğulluğun təmin edilməsinə yönəldilmiş uzunmüddətli dövlət məşğulluq siyasətini müəyyən edir. Prezident İlham Əliyevin müdrik və uzaqgörən rəhbərliyi ilə Azərbaycanda iqtisadi inkişaf, sabitlik və əhalinin sosial rifahının yaxşılaşması istiqamətində görülən böyük işlərin nəticəsidir. Aparılan sosial-iqtisadi siyasətin əsas uğurlarından biri kimi, dayanıqlı inkişaf şəraitində Azərbaycanda müsbət demoqrafik şərait bərqərar olub. Azərbaycan, bir çox sahələrdə olduğu kimi, bu baxımdan da, nümunəvi ölkədir. Prezident İlham Əliyevin sosial-iqtisadi inkişaf strategiyası nəticəsində, bütün sahələrdə mühüm tarixi nailiyyətlərə imza atan, iqtisadi qüdrətini artıran, sabitlik, təhlükəsizlik, əmin-amanlıq məkanı olan ölkəmizdə sosial rifah səviyyəsinin də, davamlı olaraq, yaxşılaşması özünü göstərir.

Əlbəttə ki, Azərbaycan əhalisinin sayının sürətli artımı hökumətin düzgün demoqrafik siyasətinin və ölkənin davamlı iqtisadi inkişafının nəticəsidir. Prezident Cənab İlham Əliyevin sosial-iqtisadi inkişaf strategiyası nəticəsində bütün sahələrdə mühüm tarixi nailiyyətlərə imza atan, iqtisadi qüdrətini artıran, sabitlik, təhlükəsizlik, əmin-amanlıq məkanı olan ölkəmizdə sosial rifah səviyyəsinin də davamlı olaraq yaxşılaşması özünü göstərir. Bu amillər isə demoqrafik inkişaf üçün vacib şərtlər sırasındadır.

***Zümrüd BAYRAMOVA***

# "Albaniya Azərbaycana qardaş ölkədir"

**Azərbaycan-Albaniya münasibətlərinin yüksələn xətt üzrə inkişafı hər iki dövlətin milli mənafelərindən irəli gəlir və strateji tərəfdaşlığa, sarsılmaz dostluğa çevrilməkdədir. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.**



*KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ*



Komitə sədri qeyd edib ki, iqtisadi əlaqələrin möhkəmləndirilməsi, ticarət dövriyyəsinin artırılması, beynəlxalq tədbirlərdə ölkələrin bir-birinə dəstək verməsi, Azərbaycan Prezidenti cənab İlham Əliyevin və Albaniya Respublikasının Prezidenti cənab Bayram Beqayın səmimi münasibətləri, dövlətlərin inkişafı üçün göstərdikləri səylər uğurlu gələcəyə hesablanmışdır və xalqların firavan həyatına xidmət edir.

"Azərbaycan və Albaniya Avropa ölkələrinin enerji təhcizatının diversifikasiyasında və enerji təminatında strateji əhəmiyyətə malik olan və böyük rol oynayan Trans-Adriatik boru kəməri (TAP) layihəsinin üzvləridir. Cənub Qaz Dəhlizinin bir hissəsi olan boru kəmərinin Albaniyanın ərazisindən keçməsi, SOKAR-ın Almaniyada fəaliyyətinə və enerji əməkdaşlığımıza fayda verəcək layihələr üzərində məsləhətləşmələrin aparılması, turizm, kənd təsərrüfatı və bir çox sahələrdə əlaqələrin yaradılmasına yönəldilən təşəbbüslər əməkdaşlığın möhkəmləndirilməsində önəmlidir. Mətbuata bəyanatında dövlətimizin rəhbəri bu önəmə diqqəti cəlb edərək demişdir ki, "Avropa İttifaqına üzv olan daha çox sayda ölkələrin Azərbaycandan təbii qaz alacağını gözləyirik. Həmçinin əvvəlki təmaslarımızda müzakirə olunan mövzulardan biri Albaniyanın qazlaşdırılması layihəsi idi və sınaq layihəsi seçilmişdi. Bu gün bizə nümayəndə heyətinin üzvləri tərəfindən məlumat verildiyi kimi, işlər cədvələ uyğun gedir və ilin sonunadək bizdə artıq bu layihənin texniki-iqtisadi əsaslandırılması olacaq".

Azərbaycan artıq Avropaya qaz ixratçısıdır və Albaniya daimi olaraq bu sahədə ölkəmizə dəstək vermişdir. Çünki Albaniyanın təbii qaza olan tələbatı 1,2 milyard kubmetrə bərabərdir ki, bu tələbatın böyük hissəsinin bu ölkədən tranzitlə keçən Azərbaycan qazı hesabına təmin olunması ehtimalı var və bu da ölkənin maraqlarına uyğundur. Albaniya Prezidenti də mətbuata bəyanatında bunu dəyərləndirərək bildirmişdir ki, "Albaniyanın qaz tranzit ölkəsi olması artıq reallıqdır. Albaniyanın qaz qəbul edən və nəql edən ölkə olması məqsədini qarşımıza qoymuşuq. Ölkəmiz buna nail olmağa və əməkdaşlığı daha da dərinləşdirməyə sadiqdir".

Göründüyü kimi Azərbaycan qazı Avropa ölkələrini ölkəmizə ciddi şəkildə cəlb etməkdə və iqtisadiyyatımızın inkişafına təkan verməkdədir. Dövlətimizin rəhbərinin uzaqgörən siyasəti isə bu inkişafı daha da sürətləndirməkdə və Azərbaycanı dünyanın aparıcı dövlətləri sırasına çıxarmaqdadır. Bu beynəlxalq aləmdə tanınmağımızın, möhkəmlənməyimizin və uğurlarımızın əsasıdır", deyə Tahir Rzayev bildirib.

# Azərbaycan səfiri "İsraildə Azərbaycan Evi"ndə görüş keçirib

**İyunun 28-də Azərbaycan Respublikasının İsrail dövlətindəki Fövqəladə və Səlahiyyətli səfiri Muxtar Məmmədovun İsrailin Akko Şəhərində yerləşən "İsraildə Azərbaycan Evi"ndə İsraildə yaşayan diaspora üzvüləri ilə görüşü olub. SİA xəbər verir ki, səfir Muxtar Məmmədovu Akko şəhərinin meri cənab Şimon Lankri şəxsən qəbul edib.**

Görüşdə meriya nümayəndələri ilə birgə mərhum Arye Qutun oglu Aviel Qut və bacısı da iştirak ediblər. Hörmətli səfir Akko şəhərinin qədim "Atika" qalasında bir necə görüş keçirdikdən sonra, saat 14:30 radələrində Akko şəhərində Dağ Yəhudilərinin mərkəzi olan "İsraildə Azərbaycan Evi"nin qonağı olub.

Tədbiri giriş sözü ilə açan Akko şəhəri üzrə dag yahudiləri cəmiyyətinin sədri və "İsraildə Azərbaycan Evi"nin rəhbəri Nexemya Şirin Mixaeli bütün tədbir iştirakçılarına üç dildə müraciət edib. Nexemya Şirin Mixaeli Ali qonaq cənab Səfir Muxtar Məmmədovu heyyət üzvlərini və bütün tədbir iştirakçılarını salamlayaraq tədbirdə iştirak edən hər kəsə öz minnətdarlığını bildirib.

Daha sonra Nexemiya Şirin Mixaeli Azərbaycan və İsrail dövlətləri arasındakı əlaqələrin daha möhkəmlənməsinin vacibliyindən və Yəhudi xalqı ilə Azərbaycan xalqının min illiklərə söykənən (2550) qədim tarixi dostluğundan və mehribanlıq şəraitində yaşamasından danışıb.

Nexemiya Şirin əlavə edib ki Azərbaycan xalqı ta qədimdən tolerant ənənələrə və muktikultural dəyərlərə malik ölkədir. Müsəlman ölkəsi olan Azərbaycanda heç bir zaman başqa millətlərə və başqa dinlərdən olanlara qarşı ayrı-seçkilik və fərqli yanaşma müşahidə edilməyib. Burada xüsusən heç bir zaman antisemitizm olmayıb. Müstəqillik əldə etdikdən sonra Azərbaycan xalqının Ümummilli Lideri və dövlətinin qurucusu Heydər Əliyev tərəfindən bu dəyərlər daha da inkişaf etdirilib.

Dahi Şəxsiyyət Heydər Əliyevin yolunu layiqincə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bütün millətlərin və müxtəlif inanclı insanların mehribanlıq şəraitində yaşadığı ən nümunəvi ölkələrdəndir. Dahi şəxsiyyət Heydər Əliyev yəhudilərə hər zaman doğma münasibət göstərib və bu gün bu doğmalıq cənab İlham Əliyev tərəfindən də yüksək şəkildə davam etdirilir. Azərbaycan İsrailin ən yaxın dostu və müttəfiqdir. Azərbaycan xalqı ilə Yəhudi xalqının arasında sarsılmaz qardaşlıq münasibətləri vardır. Və bu əlaqələr daha da genişlənəcəkdir. Çünki əsrlər boyu suyunu içdiyimiz və çörəyini yediyimiz xalqına qardaş dediyimiz bu müqəddəs torpaq biz Dag Yəhudiləri üçün də Ana Vətəndir..

Daha sonra çıxış edən Qafqaz Dağ Yəhudilərinin Ümumi İsrail Birliyinin sədri İsraildə Dağ Yəhudilərinin Parlament Lobbisinin Baş direktoru Pavel Elozarov da çıxışında səfir Muxtar Məmmədovu və tədbir iştirakçılarını salamlayaraq belə bir tədbirin təşkil edildiyi üçün "İsraildə Azərbaycan Evi"nin rəhbərliyinə öz minnətdarlığını bildirib. Həmçinin səfir Muxtar Məmmədova tədbirdə iştirak etdiyi üçün təşəkkür edən Pavel Elizarov Azərbaycan və İsrail dövlətləri arasındakı dərin dostluq və qardaşlıq münasibətlərindən geniş danışdı. Həmçinim hörmətli Pavel Elizarov əlavə etdi ki Azərbaycan İsrailə ən yaxın dost və qardaş olan ölkələrdəndir və Azərbaycan xalqı ilə Yəhudi xalqının dostluğu tam qədimlərə söykənir. Hər iki xalq və ölkə arasındakı bu səmimi dostluq və qardaşlıqdan dərin məmnunluğunu ifadə edən Pavel Elizarov Azərbaycan və Yəhudi xalqı arasındakı bu səmimi dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da möhkəmlənməsi və genişlənməsi istiqamətində daha da səmərəli çalışılmalıdır. İsrail və Azərbaycan hər zaman dost və müttəfiq olacaqlar.

Bu önəmli görüşdə İsraildə yaşayan diaspora üzvləri həmçinin İsrailin bir cox şəhərlərindən o cümlədən Yerusəlimdən yazıçı Sara Raxmani, Rişon le Sion şəhərindən hörmətli yazıçı Frida Yusufova, yazıçı Miryam Xeyli, Akko şəhərindən yazıçı və tərcüməci Şoşana Abramova və başqa hörmətli yazıçılar iştirak etdilər.





Həmçinin Or Akiva şəhərində yerləşən "Ümumi İsrail Dağ Yəhudilərinin Sədri Pavel Elizarov, Dağ Yəhudilərinin Baş ravvini Yaniv Naftali və həmçinin Tel Əviv Natanya, Kiryat Yam, Kiryat Bialik şəhərlərindən də fəal diaspora və ictimayət nümayəndələri və İsraildə Qafqaz Yəhudilərinin Mədəniyyət Mərkəzinin direktoru Ben Sion Şmaelov da iştirak edib Akko şəhərindən də Dağ Yəhudiləri cəmiyyətinin bir çox nüfuzlu ağsaqqalları və cəmiyyət nümayəndələrinin iştirakını da cox minnətdarliqla qeyd etmək istərdik.

Görüşdə iştirak edən "İsraildə Azərbaycan Evi"nin iki fəal gənci və fəxri üzvləri Beni Meir-Meirov və Rüfət-Rafael Şaulov öz güclərinə İsrail Ordusunda və Polisində yüksək rütbələrə nail olublar və onlar bu günkü gündə xüsusi bölmənin rəhbərliyində çalışırlar.

Səfir Muxtar Məmmədovla keçirilən bu görüş çox yüksək əhəmiyyətə malikdir. Görüş son dərəcə işgüzar və səmərəli şəkildə keçdi. Hörmətli yazıçılar Ana Vətən Azərbaycana və doğma Azərbaycan xalqına həsr olunmuş şerlər səsləndirdilər. Səmimi və mehribanlıq şəraitində keçirilən görüşdə Sara Raxmaninin səsləndirdiyi şeir isə tədbir iştirakçılarına çox təəsirli və yadda qalan anlar bağışlayıb.

Ravvin Yaniv Naftali öz çıxışında Azərbaycan xalqına və şəxsən cənab Prezidet İlham Əliyevin adına ivrit dilində dua oxudu. Tədbirin vaxtının məhdudiyyətliliyinə və görüşün vaxtından da xeyli keçməsinə baxmayaraq bütün tədbir iştirakçıları cənab Səfirlə görüşün davam etməsini dəfələrlə səsləndiriblər.

Səfir Muxtar Məmmədov bütün tədbir iştirakçılarını salamlayaraq öz çıxışında belə bir səmimi və qardaşlıq müstəvisində keçirilən görüş üçün və həmçinin İsrailin müxtəlif yerlərindən tədbirdə iştirak etmək üçün gəldiklərinə görə bütün tədbir iştirakçılarına öz minnətdarlığını bildirib. 30 ildən sonra Azərbaycanın İsraildə Səfirliyinin açılmasından və İsrailə səfir olaraq gəlməsindən böyük məmnunluğunu bildirib. Azərbaycan və İsrailin etibarlı dost və qardaş ölkə olduğunu bildirən hörmətli Səfir həmçinin "İsraildə Azərbaycan Evi"ndə olmaqdan və hər iki ölkə arasındakı əlaqələrin möhkəmlənməsi istiqamətində görülən əməli işlərdən də öz məmnunluğunu ifadə edib. Həmçinin hər iki ölkə və xalqlararası əlaqələrin daha da genişlənməsi və möhkəmlənməsi üçün səylərin daha da artırılmasının vacibliyi bir daha vurğulanıb.

Sonda hər iki ölkəyə və xalqa xeyir-dualar arzulanıb. Həmçinin o da xüsusi qeyd edilib ki Azərbaycan və İsrail arasındakı dostluq və qardaşlıq münasibətlərinin və bütün ictimai siyasi iqtisadi hərbi və mədəniyyət sahələrini əhatə edən əlaqələrin daha da möhkəmlənməsi üçün daha da sıx və səmərəli çalışılacaqdır.

Bu mötəbər tədbirin keçirilməsində böyük əməyi olan "İsraildə Azərbaycan Evi"nin əməkdaşları Raya Xudatovaya və Xananiya Danilovaya xüsusi minnətdarlığımızı bildiririk. Həmçinin tədbirin başlanma vaxtı İsraildə rəsmi iş saatlarına təsadüf etdiyi üçün bir çox qonaqlar o cümlədən Azərbaycan Respublikasının ilk Milli Qəhrəmanı Albert Aqarunovun qardaşı Rantiq Aqarunov və başqaları iştirak edə bilməyiblər.

# Yalnız xoşbəxt müəllimlərin xoşbəxt və savadlı tələbələri olur

**İrəli sürülən təkliflər UNESCO-nun "Təhsil, Elm və Mədəniyyət" qurumu tərəfindən 31 yanvar 2023-cü ildə keçirilmiş "Ali Təhsil Yol Xəritəsinin zənginləşdirilməsi üçün töhfələr üçün çağırış" adlı konfransına göndərilmişdir.**

Təhsil təkcə millətin yox, bütün bəşəriyyətin gələcəyidir. Müasir və qloballaşan dünyada inkişaf etmək və zamanın nəbzini tutmaq yalnız savadlı və intelektual gənclərin yetişməsi ilə mümkün ola bilər. Müasir innovasiyalar özünü nəinki bütün maddi sektorlarda, həmçinin cəmiyyətin mənəvi həyatında da açıq-aydın göstərir. Nəzərə alsaq ki, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra bu istiqamətdə dünya dövlətləri və beynəlxalq təşkilatlarla hərtərəfli əməkdaşlıq edir, o zaman bizə bunu deməyə əsas yaranar ki, ölkə olaraq təkcə beynəlxlaq arenada deyil, həm də daxili siyasət çərçivəsində təhsilin müasir tələblər üzərində qurulmasına diqqət yetirilir. Təhsil sisteminin konstuktiv qurulmasında və vətəndaşların bu hüququnun layiqincə təmin olunmasında maraqlı olan Azərbaycan Respublikasında dövlət Konstitusiyasının 42-ci maddəsi təhsil hüququ adlanır ki, burada da hər bir vətəndaşın təhsil almaq hüququ təsbit olunur. Təhsil sistemınə dövlət tərəfindən nəzarət edilir və dövlət minimum təhsil standartlarını müəyyən edir. Təhsil hüququnun dövlətin ali qanununda təsbit olunması istər nəzəri əsaslarda, istərsə də daxili və xarici siyasətin formalaşdırılmasında dövlətin bu məsələni daim maraq obyektində saxladığına bariz nümunədir. Bununla yanaşı, Təhsil haqqında Azərbaycan Respublikası qanununda da bu siyasətin prioritet istiqamətləri və beynəlxlaq əməkdaşlıq geniş yer almışdır. Nəzərə alsaq ki, müasir dünyada bütün sivilizasiyanın mənbəyi məhz bilik və yaradıcılıqla formalaşdırılır, o zaman deyə bilərik ki, ilk müəllimlər hesab edilən Aristotet, Sokratın formalaşdırdığı metodika və istiqamətlər bu gün də müasir təhsil sistemində istifadə edilir. Lakin zaman dəyişdikcə yeni-yeni forma və istiqamətlərin ərsəyə gətirilməsinə, yeni süni intellekt vasitələrindən və programlarından istifadə edilməsinə zəmin yaranır. Fikrimizcə, müasir təhsil sistemi sadəcə bir robot kimi dərsləri əzbərləyib müəllimə danışmaq deyil, əksinə tələbənin oxuduğunu dərk etməsi, müqayisə aparması, təhlillər verməsi və müstəqil tədqiqatçı kimi hər bir mövzu üzərində elmə yeniliklər gətirməsi ilə müşayiət olunmalıdır. Müasir dövrdə biz dərsi əzbərləyən robotlar deyil, düşünən beyinlər yetişdirməyə çalışmalıyıq. Dərs prosesində hər bir tələbə özünü maksimum müstəqil tədqiqatçı və lider kimi formalaşdırmalıdır. Liderlik keyfiyyətlərinin formalaşdırılmasına hələ gənc və uşaq yaşlarından dərs proseslərində istiqamətlənmək lazımdır. Tələbələrin bacarıq və potensialları müəyyən edilməli və komanda şəklində işləmək bacarıqları onlara aşılanmalıdır.





**Rəhimova Mələkxanım Seyfulla qızı**
Bakı Dövlət Universiteti, İnsan hüquqları və İnformasiya hüququ UNESCO kafedrasının müəllimi

Təbii ki, bu prosesdə ən böyük öhdəlik müəllim və məruzəçilərin üzərinə düşür. Tələbədə həvəs və istəyin formalaşdırılması, dərs prosesin daha maraqlı təşkil olunması, eyni zamanda müəllimin də bilik, bacarıq və maraqlarının toplusu halında cərəyan etməlidir. Heç təsadüfi deyil ki, tələbə psixologiyasına uyğun olaraq, onlar sevdikləri müəllimlərin dərslərini daha dərindən öyrənib qavramağa meyilli olurlar. Bunun üçün dərs prosesini maksimum maraqlı təşkil edib, müasir üsul və vasitələrdən, dünya ədəbiyyatında, tanınmış mütəfəkkirlərin yaradıcılığından istifadə edilməli, müəllim hər bir tələbəyə individual yanaşmağı bacarmalıdır.

Biz bu istiqamətdə iş aparmağın ən başlıca yolunu tələbələrdən əvvəl müəllimlərlə təşkil olunması qənaətindəyik. Bunun üçün davamlı olaraq, müəllimlər üçün pedaqoji keyfiyyətlərin inkişaf etdirilməsi məqsədi ilə davamlı seminar və treninqlər, konfrans və görüşlər keçirilməlidir. İstər hər bir ölkənin dövlət dilində, istərsə də beynəlxalq dillərdən biri bunun üçün seçilə bilər. Bu seminarlar kofe break aralarında müəllimlər üçün əyləncəli lakin öyrədici fəaliyyətlə də növbələşə bilər.

### YALNIZ XOŞBƏXT VƏ SAVADLI MÜƏLLİMLƏRİN XOŞBƏXT VƏ BACARIQLI TƏLƏBƏLƏRİ OLA BİLƏR

Hər bir region üzrə istər local, istərsə də regional səviyyədə müəllim şəbəkələri formalaşdırılmasını, müəllimlərin bu platformalarda təcrübə mübadiləsi aparmasını labüd hesab edirik. Müəllimlərin sadəcə peşə keyfiyyətlərini deyil, xobbi və maraqlarını da bölüşəcəkləri səmimi mühit formalaşdırılmalıdır. Bundan başqa, istər dərs prosesində və dərs aralarında, istərsə də dərsdən kənar məşğuliyyət növlərində MÜƏLLİMLƏR TƏLƏBƏLƏRİN ƏN YAXIN DOSTLARI sırasına daxil olmağa səy göstərməlidirlər. Bunun üçün müəllimlərə online və offline formada psixoloji seminarlar keçirilməli, hər bir tələbəyə individual yanaşmağın sirləri aşılanmalıdır. Müəllimlər peşə və şəxsi keyfiyyətlərini artırmağa daim səy göstərməli və öz üzərlərində işləməlidirlər. Pedaqogikanın üsul və vasitələrinə yiyələnmək də burda böyük rol oynayır. Hec təsadüfi deyil ki, hər savadlı şəxs savadlı pedaqoq ola bilmir.

### TƏLƏBƏNİN ANLAYA BİLDİYİ MÜƏLLİMİN ONA BAŞA SALA BİLDİYİ QƏDƏRDİR

Dərs prosesində hər bir tələbənin şəxsi bilik və bacarıqları obyektiv qiymətləndirilməli, onlara müstəqil tədqiqatçılar kimi yanaşılmalıdır. Tələbəyə yönəldilən iki sualdan biri mütləq yaradıcı xaraqter daşımalı, bu sahədə tələbənin məruzəsi təmamilə ona həvalə olunmalıdır. Əgər tələbə dərs prosesində öyrəndiyi hər hansı bir mövzu üzərində yeniliklər aparmağı və ya tanınmış alimin fikirlərinə dəyişiklik tətbiq edib, onu daha müasir hala salmağı labüd hesab edərsə, bu tələbənin öhdəsinə buraxılmalı, tələbənin səhvi kimi deyil, elmə gətirdiyi yenilik kimi dəyərləndirilməli və sonda tələbənin düşünmək qabiliyyəti qiymətləndirilməlidir. Mövzunun dərk olunması və qavranılması prosesində tələbələrə maksimum sərbəstliyin verilməsi tərəfdarıyıq.

### DƏRS PROSESİ SADƏCƏ TƏLƏBƏNİN ÖYRƏNƏCƏYİ BİR MÜHİT DEYİL

Biz pedaqoqlar belə bəzən tələbələrdən öyrənirik. Və ən nahayət son olaraq tələbələrin motivasiya olunması və onlarda təhsilə marağın yaradılması ən prioritet istiqamətlərdən biri olmalıdır. Dərs prosesi məcburi xaraqter daşımamalı, əksinə tələbələrə zövq verəcək bir mühitə çevrilməlidir. Onlarla dərs mövzuları arasında bir iki dəqiqəlik əlavə dünyagörüş və psixoloji söhbətlərin aparılması da onların fiziki və mənəvi yorğunluqlarını rahatlatdığı elmi olaraq sübut olunmuşdur. Müəllimlər unutmamalıdırlar ki, yaşından və savadından asılı olmayaraq bütün tələbələr onları balaları, yetişdirməli olduqları fidanlarıdır. Bu fidanlar nə qədər sevgi ilə böyüyərsə, bir o qədər savadlı, intelektual və cəmiyyətə yararlı şəxslərə çevrilmiş olarlar.

### SEVGİ İLƏ GÖZƏLLƏŞMƏYƏCƏK HEÇ BİR ŞEY YOXDUR

Müəllimlərin tələbələrə sevgi aşıladığı hər bir situasiyanın mütləq surətdə uğurlu nəticəsi olacaqdır.

# Yanğın təhlükəsizliyinə kim cavabdehdir?

*VƏKİL AÇIQLADI*

"Azərbaycan Respublikasında Yanğın Təhlükəsizliyi Qaydalarına əsasən, yanğın Təhlükəsizliyi Qaydalarının tələblərinin pozulmasına görə hüquqi, fiziki və vəzifəli şəxslər qüvvədə olan qanunvericiliyə əsasən məsuliyyət daşıyırlar". Bu sözləri SİA-ya açıqalamasında vəkil Turan Abdullazadə deyib. Onun sözlərinə görə, ayrı-ayrı ərazilərin, binaların, tikililərin, otaqların, sexlərin, sahələrin, texnoloji avadanlığın, elektrik şəbəkələrinin, isitmə sistemlərinin və s. yanğın təhlükəsizliyinə cavabdeh şəxslər müəssisənin rəhbəri tərəfindən xüsusi əmrlə təyin edilməlidir: "İnsanların yanğın barədə xəbərdar edilməsi üçün texniki vasitələrin tələb olunmadığı hallarda, obyekt rəhbərləri onların xəbərdar edilməsi ardıcıllığını müəyyən etməli və buna cavabdeh şəxslər təyin etməlidir.





Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 225-ci maddəsinə əsasən, üzərinə yanğın təhlükəsizliyi qaydalarına riayət edilməsi vəzifəsi qoyulmuş şəxs tərəfindən bu qaydaların pozulması, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda - iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda - üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

İnzibati Xətalar Məcəlləsinin 518.1-ci maddəsinə əsasən, mülkiyyət formasından asılı olmayaraq müəssisə, idarə və təşkilatlarda, ictimai yerlərdə, anbarlarda, yataqxanalarda və ya digər yaşayış sahələrində, meşələrdə və nəqliyyatda yanğın təhlükəsizliyi standartlarının, normalarının və qaydalarının tələblərinin pozulmasına və ya yerinə yetirilməməsinə görə - fiziki şəxslərə xəbərdarlıq edilir və ya onlar iyirmi manatdan otuz manatadək məbləğdə cərimə edilir, vəzifəli şəxslərə xəbərdarlıq edilir və ya onlar yüz manatdan yüz əlli manatadək məbləğdə, hüquqi şəxslər üç yüz əlli manatdan beş yüz manatadək məbləğdə cərimə edilir".

***Ayşən Vəli***

# Əli Kərimli Sorosun qucağından düşməyə hazırlaşır

TƏHLİL

Müxalifət düşərgəsində elə bir partiya funksioneri tapmaq və ya adını çəkmək mümkün deyil ki, onun haqqında müsbət fikir söylənilsin. Yəni, hamısı bir bezin qırağıdır. Hər biri xarici maraqlı dairələrin əlində oyuncağa çevrildiklərindən, Azərbaycanın milli və dövlətçilik maraqlarına qarşı qərəzli mövqe nümayiş etdirirlər. Müxalifətin əsas başbiləni rolunda çıxış edən Əli Kərimlinin daha çox satqın və xəyanət yolu tutduğunu desək səhv etmərik. Çünki AXCP sədri Əli Kərimli sərsəm açıqlamları, yersiz paylaşmaları ilə cəmiyyətin haqlı ittiham obyektinə çevrilib. Görünən isə ondan ibarətdir ki, bu üzdəniraq müxalif partiya sədri özünə qarşı olan ictimai narazılıqlardan nəticə çıxarmır. Ə.Kərimli bir neçə məram və məqsədlərini anlamayan gənclərin beyinlərini zəhərləməyə cəhd göstərməklə yanaşı, xarici ölkələrin bir sıra təşkilatlarına da Azərbaycan haqqında şər və böhtan xarakterli hesabatlar göndərir. Bir növ Ə.Kərimli "Freedum Hous"un, "Soros"un və bu kimi digər qərəzli məkrli təşkilatların Azərbaycandakı təmsiçisi kimi çıxış edr. Ə.Kərimli "Soros"un və "Freedum Hous"un sifarişi əsasında konkret dövləti hədəfə alır, ənənəvi qərəzli tezislərdən istifadə etməklə, Azərbaycanda insan hüquqları sahəsində və demokratik proseslərdə problemlərin olduğunu iddia edir.




## Ə.Kərimli xaricdən aldığı pullarından T.Yaqubluya və C.Həsənliyə qəpik-quruş verir

Son günlər Azərbaycana yönəldilmiş qərəzli yanaşmaların, şər və böhtanların sayının artmasında Ə.Kərilmli kimi satqınların xüsusi rolu və fəaliyyətləri mövcuddur. Bu günlər Bakıda keçirilən Qoşulmama Hərəkatının toplantısında Fransanın müstəmləkə siyasətinin kəskin tənqid edilməsinə və dünya birliyindən Fransa hökumətinə qarşı sərt cəzaların tətbiq edilməsi çağırışlarına Ə.Kərimlinin sağ əli hesab olunan Tofiq Yaqublunun etiraz etməsi və Fransanın tənqid olunmasına qarşı çıxması AXCP sədrinin tapşırığı əsasında ifadə olunan fikirlərdir. Çünki T.Yaqublu elə bir ağılsız və düşüncəsiz insandır ki, onun öz ağlı ilə hansısa fikiri söyləyə biləcəyi inandırıcı deyil. Eyni zamanda, "Milli Şura"nın didərgin sədri Cəmil Həsənlinin Azərbaycan əleyhinə xarici radiostansiyalar vasitəsi ilə böhtanlar səsləndirməsi Ə.Kərimlinin tapşırığı əsasında söylənilir. Yəni, Ə.Kərimli xaricdən aldığı pullarından T.Yaqubluya, C.Həsənliyə qəpik-quruş verməklə, onları Azərbaycanın dövlət maraqlarına qarşı sərsəm fikirlər söyləməyə məcbur edir. Bütün bu kimi faktlar onu təsdiq edir ki, Ə.Kərimli, T.Yaqublu, C.Həsənli və Arif Hacılı kimi ünsürlər birbaşa xarici maraqlı dairələrin Azərbaycandakı əlaltıları rolunda çıxış edirlər. Hətta bəzən bunu dolayısı ilə göstərirlər də. Nədi-nədi sözügedən təşkilatlar onlara maliyyə yardımları ayırır. Məhz pul xatirinə dövrədə olmaqla Azərbaycanın milli və dövlətçilik maraqlarına qarşı mübariz metodu seçirlər. Göstərişə əsasən, onlar gah mitinqlər, küçə yürüşləri keçirir, gah da hədələyici bəyanatlarla çıxışlar edirlər. Baxmayaraq ki, bu ünsürlərin təşkil etdikləri mitinqlərə gələn olmur. Ancaq "Milli Şura", AXCP və Müsavat liderləri mitinq xəstəliyindən əl çəkmirlər. Söz yox ki, mitinqlər zamanı qarşıdurma yaranarsa, dil pəhləvanları hər kəsdən öndə olmaqla, qaçmağa üstünlük verəcəklər. Bunu misal olaraq 2003-cü il 15-16 oktyabr iğtişaşlarına cəhd zamanı İsa Qəmbərin, 2005-ci il Qələbə meydanında polislə qarşıdurma zamanı Ə.Kərimlinin mühafizəçilərinin köməyini gözləmədən aradan çıxmalarını göstərmək olar. 1990-cı il 20 Yanvar faciəsi zamanı da insanları meydanlara səsləyən İ.Qəmbər, Ə.Kərimli, A.Hacılı sovet qoşunlarının şəhərə soxulduqlarını görüncə, dabanlarına tüpürüb qaçmağa üstünlük verdilər. Bu baxımdan da, onların heç biri cüzi belə zərər görmədilər. Halbuki insanları qırğına, məhz onlar vermişdilər. Sonradan bəlli oldu ki, 20 Yanvar gecəsi İ.Qəmbər Yusif Səmədoğlunun evində istirahət edirmiş. Ə.Kərimli isə doğulduğu Saatlı rayonu Azadkənd kəndində gizlənirmiş. Bir sözlə, dağıdıcı müxalifət ünsürləri hər zaman ölkəmizin milli maraqlarına zərbə vurmaqla məşğul olublar. Bu tendensiyanı iyrənc şəkildə bu gün də davam etdirirlər.

## Əli Kərimli çıxılmaz vəziyyətə düşüb

Artıq sübut olunub ki, Sorosun ayırdığı pullar hesabına doymuş məhlula çevrilən AXCP və Müsavat rəhbərliyi müəyyən sayda gənci "siyasi mühacir" adı altında xarici ölkələrə göndərib. Sonradan xaricə üz tutan gənclər səhvlərini başa düşüb, onları gedər-gəlməzə yola salan müxalifət liderlərini ifşa ediblər. Məlum olub ki, Ə.Kərimli, İ.Qəmbər, A.Hacılı 2500-3000 manat pul almaqla, onlara partiya vəsiqəsi verərək, həmin şəxsin guya mitinqlərdə polislər tərəfindən təzyiqlərə məruz qaldığını qeyd ediblər. Bu ifşaedici faktlardan sonra da sözügedən partiya sədrlərinin öz bəd əməllərini davam etdirmələri, o fikri yaradır ki, bu adamlar əxlaqdan və mənəviyyatdan, həqiqətən də, uzaqdırlar. Məhz bu amil onları məhvə sürükləyir. Proseslər və araşdırmalar da təsdiq edir ki, bu gün müxalif düşərgə ən acınacaqlı günlərini yaşamaqdadır. Növbəti parçalanmalar və qopmalar da qaçılmazdır. Bununla belə, müxalifətdə belə parçalanmaların baş verməsinin hazırkı şəraitdə qarşısını almaq da mümkün deyil. Çünki uzun illərdən bəri yığılıb qalmış intriqalar, dedi-qodular birgə addımlamağa və konkret məqsədlər uğrunda mübarizə aparmağa imkan vermir. Bu baxımdan, demək olar ki, yaxın günlərdə AXCP, Müsavat kimi dağıdıcı fəaliyyət yolu seçən partiyalar növbəti dəfə parçalanacaq və ya hansısa partiyaya birləşəcəklər. Daha doğrusu, artıq AXCP və "Milli Şura"nın parçalanması prosesi gedir. Yəqin ki, yaxın günlərdə sözügedən qurumlar tam şəkildə fəaliyyətlərini dayandıracaqlar. Ola da bilsin ki, digər partiyalara transfer olunsunlar. Bu faktı möhkəmləndirən məsələ həm də ondan ibarətdir ki, Ə.Kərimli çıxışlarının birində Sorosla əlaqələrini kəsəcəyini bəyan etməsidir. Yəni, Ə.Kərimli artıq Sorosun qucağından düşməyə hazırlaşır. Bu isə o deməkdir ki, AXCP-yə Soros vasitəsi ilə ayrılan maliyyə vəsaiti dayandıra bilər. Pulun olmaması Ə.Kərimlini çıxılmaz vəziyyətə qoyur. Bu halda ya başqa maliyyə mənbələri tapılmalı, ya da AXCP-nin fəaliyyəti dayandırılmalıdır.

***İ.ƏLİYEV***

## "Erməni heç vaxt öz sözünün sahibi olmayıb"

DEPUTAT MÜNASİBƏT BİLDİRDİ

"Azərbaycanın dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev 44 günlük müharibədən sonra xalqa müraciətində deyirdi: "Zaman gələcək biz Ermənistanla qonşu dövlətlər arasında olan münasibətləri quracağıq. Amma ermənilərin bizə qarşı törətdikləri qətliamları, vəhşilikləri, faşist düşüncəsini heç vaxt unutmamalıyıq". Bunlar təcrübədən gələn fikirlərdir. Təcrübə göstərir ki, ermənilər yaramaz, ikiüzlü, qəddardır. Ermənilər gözyaşı tökməklə özünə arxa-dayaq toplayıb. Amma bütün tarix boyu bir fikir hakim olub". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Anar İsgəndərov deyib.



Onun sözlərinə görə, heç vaxt Ermənistanı qızışdıran dövlətlər sona qədər onu müdafiə etməyiblər: "Çünki erməni elə bir xislətin sahibidir ki, heç vaxt sözünün üstündə durmur. Ermənistana arxa çıxan dövlətlər belə son nəticədə özlərini ona görə pis vəziyyətə qoymurlar. Bu gün Ermənistanı ondan çox istəyən Fransa prezidenti Makrondur. Bəs Makron nə edə bilir ki? O, Fransada erməni əsilli vətəndaşlarla görüşəndə deyir ki, mən Azərbaycan Prezidentinə təsir göstərirəm. Makron bu addımı ilə özünü gülünc hala salır. İt hürər, karvan keçər. Azərbaycan dövlət başçısı səviyyəsində hər zaman qeyd edir ki, Ermənistana inanmır".

Deputat sözlərinə davam edərək bildirib ki, erməni heç vaxt öz sözünün sahibi olmayıb: "Bugünkü gündə də düşmən yüzlərlə təxribata əl atır. Lakin indi erməninin boğazı bizim əlimizdədir. Artıq 30 il öncəki Azərbaycan idarəçiliyi yoxdur. 44 günlük müharibə ilə Cənubi Qafqazın siyasi xəritəsi dəyişilib. Bu, yazılmamış qanundur ki, qalib kimdirsə söz sahibi də odur. Bu gün güclü, böyük iqtisadiyyata malik, dünyada qəbul olunan bir Azərbaycan var. II Qarabağ müharibəsi ilə Azərbaycan yalnız Ermənistana, onu müdafiə edən dövlətlərə deyil, bütün dünyaya öz gücünü göstərir. Ona görə də indi ermənilər çabalayır, Qarabağa silah gətirmək üçün min oyundan çıxır. Biz heç kimin torpağını işğal edib viran qoymamışıq. Biz dünyaya həqiqətləri bəyan edirik. Heç kimə inanmağı üçün yalvaracaq deyilik. Çünki Azərbaycanın buna ehtiyacı yoxdur. Açılan hər bir gün Azərbaycanın xeyrinədir. Ona görə ki, Azərbaycan təcavüzkar dövlət deyil. Azərbaycan Prezidentinin də dediyi kimi, biz Ermənistanla sülh müqaviləsi bağlamaq istəyirik. Əgər Ermənistan bunu istəmirsə, bizim itirəcəyimiz heç nə yoxdur. Ermənistan isə burulğan içindədir. Ermənistanla sülh müqaviləsi bağlansa belə Azərbaycan ona etibar edəcək deyil. Çomağımız həmişə əlimizdə olacaq. Ölkə başçısının sözləri ilə desək, "dəmir yumruq" hər zaman hazırdır. Nə vaxt lazım olsa, o yumruq Ermənistanın başına dəyəcək və onu ən ağır vəziyyətə salacaq".

***Ləman Sərraf***

## "Erməni təxribatlarına görə Qərb narahatdır"

MÜNASİBƏT



"Qərbin, o cümlədən AB-nin vasitəçiliyi ilə münaqişə tərəfləri arasında keçirilən danışıqlarda əsas məqsəd Rusiyanı moderator olaraq danışıqlardan uzaqlaşdırmaq, bundan sonra Rusiya sülhməramlılarının Azərbaycan ərazisindən çıxarılmasına nail olmaqdan ibarətdir, zira 44 günlük bəlli savaşdan sonra bölgədəki yeni geosiyasi reallıqlar Qərbi, ilk növbədə ABŞ-ı qane etmir. AB danışıqlarda müstəqil tərəf deyil, ilk növbədə ABŞ ın bölgəki maraqlarından çıxış edən və əlbəttə bəlli sifarişləri yerinə yetirən geosiyasi oyunçudur, nəhəng imkanlara malik olduğu halda gil ayarrabili nəhəngdir". Bunu politoloq Elşən Manafov "Səs" qəzetinə açıqlamasında deyib. Onun sözlərinə görə, Vaşinqtondakı danışıqlardan dərhal sonra AB-nin növbəti dəfə təşəbbüslə çıxış etməsi göstərir ki, Qərb ciddi şəkildə narahatdır: "Narahatçılığa isə səbəb var, zira Ermənistan iqtidarı Qərbdəki havadarlarının göstərişi ilə Moskva razılaşmasının şərtlərinin yerinə yetirilməsindən yayınır, bu isə Azərbaycanı öz ərazisindəki işğalçı qoşunları çıxartmaq üçün antiterror əməliyyaları keçirməyə sövq edə bilər. Məhz bu amil də Paşinyanın Qərbdəki havadarlarını ciddi şəkildə narahat edir. Əvvəla Azərbaycan dövlətinin iqtisadi gücü, onun ordusunun hərbi qüdrəti ilə Ermənistan müqayisəyə gəlməyəcək dərəcədə zəifdir, digər tərəfdən Ermənistan hakimiyyətinin Rusiyaya münasibətdə sərgilədiyi mövqe rəsmi İrəvanın xeyrinə deyil, zərərinə işləyir, nəhayət, Rusiyanın Azərbaycanla münasibətlərə verdiyi önəm kontekstində Ermənistanın KTMT üzrə müttəfiqlərinə də bel bağlamağa dəyməz, nəhayət, Azərbaycanın Qərbin enerji təhlükəsizliyində oynadığı rol baxımından Qərbin də Ukraynadakından fərqli olaraq Ermənistana əməli dəstək verməyəcəyi bəllidir. Rusiya ilə Ukraynada yeni dunya nizamı uğrunda gedən mübarizənin konteksində Ermənistan Qərb üçün Troya atı ampluasında çıxış etməyə hazır olduğunu bildirir, lakin indiki şəraitdə məsələ ondan ibarətdir ki, bu kimi layihələrin hansı niyyət ilə həyata keçirilməsi planlarından Rusiya və bölgəki uzunmüddətli sabitliyin bərpa olunmasında maraqlı olan digər region dövlətlərinin siyasi elitaları da xəbərdardırlar".

***GÜLYANƏ***

# Bakının əcəl təri

## Bakının üzünü ağardan Xəzri ilə Gilavar imiş...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb*









**İyulun 9-da Bakıda qeydə alınan istilik dərəcəsi 41-dək yüksəlib. Bölgələrdə hava yağmurlu olsa da, Bakıda qovurucu istilər həyatı iflic etdi. Küləyin olmaması istilik nisbətinin yüksəlməsinə təsir etdi. Belə vaxtlarda Bakının ayrılmaz dostu küləyin, əslində, xilasedici olduğunun fərqinə varırıq.**

Hazırda bütün dünyada, o cümlədən də Azərbaycanda anomal hidrometeoroloji hadisələrin sayı artmaqdadır. Bu isə həmişə təbii proseslər üzündən baş verən iqlim dəyişikliklərinin sürətləndiyini təsdiqləyir. Dünyada təbii fəlakətlərin artım tendensiyası, minlərlə insanın ölümünə səbəb olan zəlzələlər, sunamilər, Avropanı, eləcə də Azərbaycanı təlaşa salan sel və daşqınlar, anomal soyuqlar və istilər insanları müxtəlif suallar ətrafında düşünməyə vadar edir.

Bakının yerləşdiyi Abşeron yarımadasının iqlimi mülayim isti yayı və qısa yumşaq qışı ilə fərqlənir. İqlimi yarı quraq və subtropikdir. Bakının cənub-qərb tərəfi daha quru iqlimə malikdir. Burada illik yağıntı 150 mm- -dən az olur, şimal küləyi - Xəzri və cənub küləyi - Gilavar əsir. Xəzri və Gilavarın olmadığı bəzi yay günləri temperatur insan sağlamlığı üçün təhlükəli həddə çatır.

Yay aylarının qızmar istisindən qorunmaq üçün ən son variantımız kondisionerlərdir. Kondisionerin bizə mənfi təsirləri arasına quruyan göz bəbəkləri və dəri, susuzluq, tənəffüs problemləri, yoluxucu xəstəliklər riskinin artması və baş ağrıları daxildir. Bunlara əlavə olaraq kondisioner bədənin istilik balansını pozaraq soyuqdəymə kimi xəstəliklərə səbəb ola bilər. Kondisionerin zərərləri dedikdə ağla ilk gələn nadir hallarda rast gəlinən, lakin çox ciddi təsirləri olan legioner xəstəliyidir. Legioner xəstəliyi Legionella Pneumophila adlı bakteriyanın yaratdığı ağciyər infeksiyasıdır. Ümumiyyətlə xəstəxanalar, otellər və məktəblər kimi böyük binalardakı çirkli kondisionerlərdən ötürülür. Simptomlara pnevmoniyaya bənzər şiddətli qızdırma, titrəmə, öskürək, əzələ ağrıları və nəfəs darlığı daxildir.

Kondisioner istifadə olunduğu mühitin havasını qurudur. Normalda, qapalı məkanların rütubət səviyyəsi yayda 35-65% arasında olmalıdır. Rütubət səviyyəsi aşağı düşdükdə dərinin quruması, gözlərin qıcıqlanması və nəfəs almaqda çətinlik çəkə bilərsiniz. Kondisionerli otağı nəmləndirmək üçün aşağıdakı bəzi üsullardan istifadə edə bilərsiniz.

Kondisionerdən istifadə etdiyiniz otağın bəzi hissələrinə bir neçə qab su qoyaraq ətrafı nəmləndirə bilərsiniz. Su tədricən buxarlanır, otağın rütubətini artırır. Bitkilər də insanlar kimi tərləyir və su buxarını havaya üfürərək ətraf mühitin rütubətini artıra bilirlər, evdə bitki sayını artıraraq kondisionerdən qoruna bilərsiniz. Paltarlarınızı yuduqdan sonra qurutmaq üçün evdə asıb kondisionerdən quruyan havanı nəmləndirə bilərsiniz. Yaş paltar quruyarkən nəmini xaricə buraxır.

Yaxud evdəki havanı nəmləndirmək üçün bir qazana su doldurub ocağın üstünə qoya bilərsiniz. Qazanda suyu qaynadıb ocağı söndürməklə ətrafı nəmləndirə bilərsiniz. Duş qəbul etdikdən sonra duş pərdəsini və hamamın qapısını açıq qoya bilərsiniz ki, hamamdakı buxar evə yayılsın.



Lakin kondisioneri olmayan, yaxud da hər hansı sağlamlıq problemindən dolayı kondisioner istifadə edə bilməyən insanlar da olduğundan istidən qorunmağın alternativləri barədə xırdalıqları da qeyd edirik.

Pəncərələrinizdə istini hopduran yox, əks etdirən materialdan pərdə istifadə edin. Əks etdirən pərdələrdən günorta saatlarında, temperaturun ən yüksək olduğu vaxtlarda və səhər istisindən qorumaq üçün gecə istifadə edə bilərsiniz. Hava axınının tənzimləyən matrasları seçin.Yundan hazırlanmış döşəklər istiliyi saxlayır. Ancaq matras döşəklər əlavə hava axını və nəfəs alma qabiliyyətinə malik olduğundan, gecə yatarkən həddindən artıq tərləmə olmur.

Əksəriyyət çılpaq yatmağın istilənməkdən sığortaladığını düşünür. Yuxu zamanı tərləyən insanlar üçün ən optimal həll pambıq pijama kimi tər keçirməyən paltarlarla yatmaqdır. Gecələr istidən oyananlardansınızsa, bunun da bir həll yolu var. Həddindən artıq istiyə qarşı orqanizminizdə maddələr mübadiləsi yavaşlayır və siz istiliyi daha çox hiss edirsiniz. Gündüz və gecə yatmazdan əvvəl soyuq su içmək bu problemin qarşısını almağa kömək edəcək. Gecə yatmazdan əvvəl soyuq su içmək də tərləmənin qarşısını alacaq.

Əksəriyyət rahatlığından dolayı idman ayaqqabılarını geyməyi sevir. Bunun sizi tərlədən amil olduğunu unutmayın və yay başmaqları ilə əvəzləyin. Ayaqlarınız havadar olmalıdır ki bədəninizə də sərinlik yayılsın. Gecələr istidən yuxuya gedə bilməyənlər üçün ən yaxşı həll yollarından biri yatağın üzərinə yaş və ya nəm dəsmal qoymaqdır. Bütün gecə nəm qalmasa belə, yuxuya gedənə qədər nəm qalacaq dəsmal soyumağınıza və yatmağınıza kömək edəcək.

Kondisionerlərdən daha çox enerji sərfiyyatı olan ventilyatorlar yatarkən sizə özünüzü istidən qorumağa kömək edəcək. Gecə yatmazdan əvvəl otağınızın bir küncünə ventilyator qoyub qabağına bir vedrə buz və ya buzlu su qoysanız, ventilyator sərin hava üfürməyə başlayacaq və otağınız sərinləyəcək. Bu kondisioner effekti verən primitiv üsuldur.



Lalə Mehralı

SON SƏHİFƏ

# Səs

11 iyul
2023-cü il

# Süni intellekt qanunu: **Kim kimi idarə edəcək?**

## Süni intellekt insanlar arasında cinsi, irqi, etnik, dini ayrı-seçkilik edə bilməyəcək



Avropa Şurası Baş Assambleyasının Strasburqda keçirilən sessiyasında Avropada süni intellektlə bağlı ilk qaydaları özündə əks etdirən qanun layihəsi müzakirə edilib. AŞPA deputatları süni intellekt qanunu ilə bağlı üzv dövlətlərlə aparılan danışıqlarda AŞPA-nın mövqeyini müəyyən edən sənədi 499 "Bəli" və 28 "Xeyr" səsi ilə qəbul ediblər. Müvafiq olaraq, süni intellekt sistemlərinin insanlar tərəfindən idarə edilməsi, ayrı-seçkilik etməməsi, təhlükəsiz, şəffaf və ətraf mühitə uyğun olması tələb edilir.

Süni intellektə riskə əsaslanan yanaşma tətbiq olunacaq. Süni intellektin yarada biləcəyi risk səviyyəsindən asılı olaraq, qaydalar daha da sərtləşəcək. İnsanların təhlükəsizliyi üçün "qəbuledilməz" risk səviyyəsinə çatan süni intellekt sistemləri qadağan ediləcək. Bu, insanları sosial davranışlarına və ya şəxsi xüsusiyyətlərinə görə təsnif edən süni intellekt sistemlərini əhatə edəcək. İctimai yerlərdə real vaxt rejimində uzaqdan biometrik identifikasiya sistemlərindən istifadə də qadağan ediləcək.

Cins, irq, etnik mənsubiyyət, vətəndaşlıq statusu, din, siyasi oriyentasiya, profilləşdirmə, polis sistemlərində, hüquq-mühafizə orqanlarında, sərhəd orqanlarında, iş yerlərində və təhsil müəssisələrində emosiya identifikasiyası sistemləri kimi müxtəlif həssas xüsusiyyətlərdən istifadə edən biometrik təsnifat sistemləri və ya keçmiş həbs həyatı, üzün tanınması kimi məlumat bazalarının yaradılması üçün internetdə məlumat bazalarının yaradılması qadağan ediləcək.

Yüksək riskli süni intellekt təsnifatı insanların sağlamlığına, təhlükəsizliyinə, əsas hüquqlarına və ya ətraf mühitə dəyən zərəri əhatə edəcək şəkildə genişləndiriləcək. Siyasi kampaniyalarda seçicilərə təsir etmək üçün süni intellekt sistemlərindən istifadə yüksək risk kateqoriyasına daxil ediləcək. Ümumilikdə 45 milyondan çox istifadəçisi olan əsas sosial media platformalarının istifadə etdiyi sistemlər də yüksək risk siyahısına daxil ediləcək və bu sistemlər ciddi qaydalara tabe olacaq.

ChatGPT kimi sistemlər əlavə şəffaflıq qaydalarına əməl etməlidir. Bu sistemlər məzmunun süni intellekt tərəfindən yaradıldığını açıq şəkildə bildirməli olacaq. Sistemlər qeyri-qanuni məzmun istehsalının qarşısını almaq üçün dizayn ediləcək. Təsdiq edilmiş danışıqlar mandatı çərçivəsində ittifaqa üzv ölkələrlə AŞPA arasında danışıqlar başlayacaq. Qanunvericiliklə bağlı danışıqların bu ilin sonuna kimi başa çatdırılması gözlənilir. Avropa İttifaqı qurumları ortaq hüquqi mətn üzərində razılaşdıqdan sonra qanun qurumun rəsmi jurnalında dərc edilərək qüvvəyə minəcək.

Aİ-nın hələ ChatGPT və ya oxşar süni intellekt sistemləri ilə bağlı tənzimləməsi yoxdur, lakin 2 il əvvəl Aİ Komissiyası süni intellektlə bağlı yeni qaydalar çərçivəsini özündə əks etdirən ilk qanunvericilik təklifini hazırladı və üzv dövlətlərə və AŞPA-ya təqdim etdi. Bu təklif süni intellekt sistemlərinin istifadəsində bəzi məhdudiyyətlər və şəffaflıq qaydaları təqdim etdi.

Komissiyanın təklifində süni intellekt sistemləri qəbuledilməz risk, yüksək risk, məhdud risk və minimum risk kimi 4 əsas qrupa bölünüb. Digər tərəfdən, AB keçən həftə texnologiya şirkətlərindən süni intellekt tərəfindən hazırlanmış mətn və şəkillərə təsviri etiketlər qoymağı xahiş etdi. Bundan əlavə, süni intellekt qanunu qüvvəyə minməmişdən əvvəl Aİ Komissiyası süni intellekt sahəsində çalışan bütün şirkətlərin iştirakı ilə bu sahədə yeni qaydalar gətirəcək razılaşma üzərində işləyir. Bu könüllü razılaşmanın süni intellekt qanunu qüvvəyə minənə qədər həyata keçirilməsi planlaşdırılır.

*Lalə Mehralı*


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Mobil telefonların qiymətində enmə nə ilə əlaqədar ola bilər?

## İQTİSADÇI DANIŞDI



"Azərbaycan Dövlət Statistika Komitəsinin son açıqlamasına görə, əgər ilin əvvəlində 1 ədəd mobil telefon orta hesabla 379.21 manat olubsa, may ayında bu qiymət 375.27 manat təklif olunur. Yəni, 3 manat 94 qəpik enmə müşahidə olunur". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Rauf Qarayev deyib.

Onun sözlərinə görə, bunun bir neçə səbəbi var: "Bayramlar mövsümü, adətən avqust ayından başlayır və ilin sonuna kimi davam edir. Bu mövsümlərdə marketoloqlar üçün istirahət günləri hesab olunur. Bu halda onlar fürsətdən istifadə edib müxtəlif formada endirimlər üçün kampaniyalar haqqında düşünürlər. Köhnə mobil telefonlardan, anbarda yığılıb qalan telefonlardan uzaqlaşmaq üçün bu mövsüm bir fürsət kimi dəyərləndirilir".

İqtisadçı sözlərinə davam edərək bildirib ki, mobil telefon fiziki cəhətdən yox, mənəvi cəhətdən köhnələn əşyalara aiddir: "Ola bilər ki, bir telefonu alıb 5-10 il işlədə bilərsiniz. Amma mənəvi cəhəddən o 1 ildən sonra köhnəlmiş olur. Yəni, artıq bir modeldən sonra yeni model mobil telefon satışa çıxırsa əvvəlki modelin qiymətində enmə müşahidə olunur. Belə telefonlar adətən ilin əvvəlində satışa çıxarılır bu baxımdan da, enmələr köhnə modeldə qaçınılmaz olur.

Bundan əlavə vergi məsələsi də var. Enmələrdə vergi güzəştləri edilmir. Əksinə vergi və gömrük baxımından faizlər stabildir. Amma bunun əsasını ilkin qiymət formalaşdırdığından mobil telefonun satışı ilə məşğul olan şəxs gərək onu daha ucuz alıb gətirsin ki, burada fərq çoxda hiss olunmasın. Nəzərə alsaq ki, bu sahədə monopoliya mövcuddur, hər kəs mobil telefon gətirib satış edə bilmir. Bunun üçün həmin şəxs vergi uçotuna durmalıdır. Adi vətəndaş mobil telefon gətirdikdə bunun üçün gömrük, qeydiyyata salınma və sair kimi hədlər mövcuddur".

*Ləman Sərraf*

## "Yuventus"a UEFA ŞOKU: Konfrans Liqasından kənarlaşdırılacaq



Corriere dello Sport" nəşri İtaliya nəhəngi "Yuventus" futbol klubu ilə bağlı maraqlı məlumat dərc edib. Nəşrin məlumatında deyilir ki, UEFA maliyyə pozuntularına görə "Yuventus"u 2023/2024 mövsümündə avrokuboklardan kənarlaşdıracaq. Məlum olub ki, turin təmsilçisi yeni mövsüm üçün vəsiqə qazandığı Konfrans Liqasından uzaqlaşdırılacaq. "Yuventus"u sözügedən turnirdə ötən mövsüm İtaliya A seriyasını 8-ci pillədə başa vuran "Fiorentina" əvəzləyəcək.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000